MAHMUD KAŞĞARLI

Beynəlxalq elmi jurnal
Международный научный журнал
International scientific journal

www.kashgarli.az
info@kashgarli.az

ISSN 3005-3137
E İSSN 3005-4982

Cild 2, №1

ISSN 3005-3137 (Print)
EISSN 3005- 4982 (Online)

MAHMUD KAŞĞARLI

Beynəlxalq elmi jurnal
Международный научный журнал
International scientific journal

Toplu Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən rəsmi qeydiyyata alınmışdır.

It was officially registered by the Commission of Higher Attestation under the President of Azerbaijan Republic

- ***İldə 3 dəfə nəşr olunur.***
- ***Издается 3 раза в году.***
- ***Published 3 times a year.***

II Cild
№1

BAKI – 2024

İÇİNDƏKİLƏR

DİLÇİLİK

ƏDƏBİYYATŞÜNASLIQ

TARİX

İNCƏSƏNƏT VƏ MƏDƏNİYYƏT

PERSONALİA

СОДЕРЖАНИЕ

ЛИНГВИСТИКА

ЛИТЕРАТУРНОЕ ИССЛЕДОВАНИЕ

ИСТОРИЯ

ИСКУССТВО И КУЛЬТУРА

ПЕРСОНАЛИИ

CONTENTS

LINGUISTICS

LITERARY RESEARCHİNG

HISTORY

ART AND CULTURE

PERSONAL NEWS

UOT: 531. 811.

KOREYA VƏ AZƏRBAYCAN ARASINDA DİL TƏDRİSİ VƏ MÜBADİLƏLƏRİN HAZIRKİ VƏZİYYƏTİ

Yanghee LEE
Koreya Xarici Dillər Universiteti,
Türk-Azərbaycan araşdırmaları kafedrası, Chong Jin, OH
Fəlsəfə elmləri doktoru, professor
Hankuk Xarici Araşdırmalar Universiteti,
Türk-Azərbaycan Araşdırmaları kafedrasi müdiri, Seul, Korea
Jin93@hufs.ac.kr
https://orcid.org/0000-0002-8980-2688

Xülasə

Azərbaycan dilinin tədqiqinə dair araşdırmalar, əsasən, Koreya dili ilə türk dillərinin aqqlütinativlik xüsusiyyətləri aspektindən aparılıb. Lakin son zamanlar müxtəlif sahələrdə aparılan tədqiqatların əhatə dairəsi genişlənib. Bu məqalə Koreya və Azərbaycan dilləri arasında aparılan linqvistik müqayisəli tədqiqatlar haqqında deyil, dilin tədrisinin ümumi aspektində hər iki ölkənin mövcud vəziyyətini araşdıraraq Azərbaycan dili ilə əlaqədar Koreyada milli siyasət kimi həyata keçirilən dil tədrisi proqramının istifadəsi üçün üsulların təklif edilməsi ilə bağlıdır. Azərbaycan və Koreya arasında diplomatik əlaqələr 1992-ci ildə qurulsa da Koreya ilə Azərbaycan arasında elm, təhsil, mədəni əlaqələrin genişlənməsi Cənubi Koreya prezidenti No Mu Hyonun 2006-cı ildə Azərbaycana səfərindən sonra daha geniş vüsət almışdır. 2007-ci ildə hər iki ölkədə səfirlik yaradıldı. O vaxtdan bəri iki ölkə arasında iqtisadi, sosial və mədəni mübadilələr durmadan artır. İnkişaf potensialı və mümkünlüyü olan ölkələrlə mübadilələrin genişləndirilməsi dilə tələbatın da artırılmasını və əməkdaşlıq sahəsində istedadlı insanların yetişdirilməsini tələb edir. Müvafiq olaraq, hər iki ölkədə dil, mədəniyyət və akademik sahələrə tələbatın daha da artacağı gözlənilir. Məqalədə Azərbaycan və Koreyada milli siyasət kimi həyata keçirilən dil tədrisi proqramının istifadəsi üçün üsullardan bəhs edilmiş, hər iki ölkədəki dil tədrisinin vəziyyəti, Azərbaycanda Koreya dilini və koreyaşünaslığı tədris edən müəssisələrin cari vəziyyəti, statistikası,iki ölkə arasında təhsil sahəsində digər mübadilə və əməkdaşlıqlar tədqiqata cəlb edilmişdir.

Açar sözlər: Azərbaycan, Koreya, milli siyasət, istedadlı insanların yetişdirilməsi, dil tədrisi proqramı, mübadilə, əməkdaşlıq.

CURRENT POSİTİON OF LANGUAGE TEACHİNG AND İNTERCHANGES BETWEEN KOREA AND AZERBAİJAN

Yanhee Lee
Korean University of Foreign Languages,
Department of Turkish-Azerbaijani Receasrchs, Chong Jin, OH
Doctor of philosophy sciences, professor
Hankuk Univeristy of Foreign Studies, Seol, Korea
Head of Turkic-Azerbaijani Researchs Department

Summary

Researching on exploring the Azerbaijani language were carried out mainly from point of the agglutinative characteristics of Korean and Turkish languages.But recently the volumes of researches carring out in various fields has expanded.This article is dedicated to non-comparative linguistic researchs between Korean and Azerbaijani, but rather the current situation of both countries in general aspect of language teaching and the proposal of methods for using the language teaching program,realizing as a national policy in Korea, regarding to the Azerbaijani language.Though diplomatic relations between Azerbaijan and Korea were established in 1992, influsing of scientific, educational and cultural ties between Korea and Azerbaijan has been widespread wider after visiting of South Korean President Roh Moo Hyo to Azerbaijan in 2006. Embassies were opened in both countries in 2007. Since then, economic, social and cultural changes between two countries had been so wider. Expanding changes with countries on developing potential and opportunities, increasing demand for the language and and requires the prepairing of talanted people in field of cooperation. Respectively, widely expected for increasing of language, culture and academic fields in both countries. It was discussed about the methods of using the language training program realizing as a national policy in Azerbaijan and Korea, the position of language teaching in both countries, the current

position of institutions teaching Korean and Korean Linquistics in Azerbaijan, their statistics, other educational changings between two countries and collaborations; in this article.

Key words: Azerbaijan, Korea, national policy, preparation of talented people, language training program, exchange, cooperation.

ТЕКУЩЕЕ СОСТОЯНИЕ ПРЕПОДАВАНИЯ ЯЗЫКОВ И ОБМЕНОВ МЕЖДУ КОРЕЕЙ И АЗЕРБАЙДЖАНОМ

Янхи Ли
Корейский университет иностранных языков,
Кафедра турецко-азербайджанских исследований, Чонг Джин, Огайо
Доктор философских наук, профессор
Университет иностранных языков Ханкук, Сеул, Корея
Заведующий отделом тюркско-азербайджанских исследований

Резюме

Исследования по изучению азербайджанского языка проводились в основном с точки зрения агглютинативных характеристик корейского и турецкого языков. Но в последнее время объем исследований, проводимых в различных областях, расширился. Эта статья посвящена не сравнительным лингвистическим исследованиям между корейским и азербайджанским языками, а скорее текущему положению обеих стран в общем аспекте преподавания языков и предложению методов использования программы обучения языкам, реализованной в качестве национальной политики в Корее в отношении азербайджанский язык. Хотя дипломатические отношения между Азербайджаном и Кореей были установлены в 1992 году, расширение научных, образовательных и культурных связей между Кореей и Азербайджаном получило более широкое распространение после визита президента Южной Кореи Но Му Хё в Азербайджан в 2006 году. В 2007 году в обеих странах были открыты посольства. С тех пор экономический, социальный и культурный обмен между двумя странами неуклонно растет. Расширение обменов со странами с потенциалом и возможностями развития требует увеличения спроса на язык и подготовки талантливых людей в сфере сотрудничества. Соответственно, спрос на язык, культуру и академические области, как ожидается, возрастет в обеих странах. В статье рассказывается о методах использования программы обучения языку, реализуемой в качестве национальной политики в Азербайджане и Корее, состоянии преподавания языков в обеих странах, текущей ситуации и статистике учреждений, обучающих корейскому языку и кореееведению в Азербайджане, других обменах и сотрудничество в сфере образования между двумя странами участвуют в исследованиях.

Ключевые слова: Азербайджан, Корея, национальная политика, подготовка талантливых людей, программа обучения языкам, обмен, сотрудничество.

Aktuallıq. Azərbaycan geosiyasi mövqeyinə görə strateji cəhətdən əhəmiyyətli ölkədir. Şimal-qərbi İran, Türkiyə və Rusiya ilə həmsərhəddir və bu ölkələrlə dil, mədəni və ictimai əlaqələri mövcuddur. Azərbaycan dili Ural-Altay dilləri ailəsinə mənsubdur və Cənub-Qərbi Oğuz dili kimi türk dili ilə linqvistik cəhətdən sıx bağlıdır. Ərəb, fars və rus dillərinin təsirlərini nəzərə alaraq bu dilin linqvistik xüsusiyyətlərini öyrənməyə ehtiyac var.

Annotasiya. Azərbaycan dilinin tədqiqinə dair araşdırmalar, əsasən, Koreya dili ilə türk dillərinin aqqlütinativlik xüsusiyyətləri aspektindən aparılıb. Lakin son zamanlar müxtəlif sahələrdə aparılan tədqiqatların əhatə dairəsi genişlənib. Bu araşdırmada Koreya və Azərbaycan dilləri arasında aparılan linqvistik müqayisəli tədqiqatlar haqqında deyil, dilin tədrisinin ümumi aspektində hər iki ölkənin mövcud vəziyyətini araşdıraraq Azərbaycan dili ilə əlaqədar Koreyada milli siyasət kimi həyata keçirilən dil tədrisi proqramının istifadəsi üçün üsullar təklif edəcəm.

Metod. Məqalədə müqayisə, qarşılaşdırma metodları və müasir dilçilik üsulları tətbiq olunmuşdur.

Giriş. Hər iki ölkədə dil tədrisinin hazırki vəziyyəti. Azərbaycan və Koreya arasında diplomatik əlaqələr 1992-ci ildə qurulub. Cənubi Koreya prezidenti No Mu Hyonun 2006-cı ildə Azərbaycana səfərindən sonra 2007-ci ildə hər iki ölkədə səfirlik yaradıldı. O vaxtdan bəri iki ölkə arasında iqtisadi, sosial və mədəni mübadilələr durmadan artır. İnkişaf potensialı və mümkünlüyü olan ölkələrlə mübadilələrin genişləndirilməsi dilə tələbatın da artırılmasını və əməkdaşlıq sahəsində

istedadlı insanların yetişdirilməsini tələb edir. Müvafiq olaraq, hər iki ölkədə dil, mədəniyyət və akademik sahələrə tələbatın daha da artacağı gözlənilir. Bu fəsildə Azərbaycan və Koreyada Azərbaycan dilinin cari vəziyyəti və Azərbaycanda Koreya dilinin tədrisinin cari vəziyyəti daxil olmaqla, hər iki ölkənin universitet və müəssisələrində aparılan dil tədrisi fonunda mübadilə və əməkdaşlığa nəzər salacam.

Koreya Fondunun statistik məlumatlarına görə, 107 ölkədə koreyaşünaslıq dərsləri təklif edən 1408 müəssisə və universitetlər var ki, bunlardan da bəziləri Koreya dövlətinin xaricdə açılmış müəssisələridir, bəziləri isə həmin ölkələrin universitetləridir. Onların arasında koreyaşünaslıq üzrə ən çox dil dərsləri olan ölkələr Yaponiya (377 universitet), Çin (276 universitet), Amerika(131 universitet), Rusiya, Tailand və Vyetnamdır. Koreya dilinin tədrisinə görə Azərbaycan İspaniya və Sinqapur kimi ölkələrlə birgə 28-ci yerdədir. Burada 6 müəssisədə Koreya dili tədris olunur.Azərbaycanda Koreya dili və koreyaşünaslıq təhsili təklif edən universitetlər aşağıdaqeyd olunan Cədvəl 1-də verilmişdir. Azərbaycan Dillər Universiteti və Bakı Dövlət Universitetində fakültələr açılmış və tədris davam etməkdədir. Digər universistetlərdə Koreya dili və mədəniyyəti dərsləri keçilməkdədir. Bundan əlavə, 2018-ci ildən etibarən "Seconq"kursları açılmış və və son zamanlar Hallyunun təsiri ilə tələbələrin Koreya dilinə marağı artmışdır və bu səbəbdən Koreya dili öyrənənlərin sayı get-gedə artmaqdadır.

Cədvəl 1. Azərbaycanda Koreya dilini və koreyaşünaslığı tədris edən müəssisələrin cari vəziyyəti,statistikası

Sıra №	Azərbaycan universitetləri	Koreya dili ilə bağlı dərslərin cari vəziyyəti	
1	Azərbaycan Dilllər Universiteti (Azerbaijan University of Languages)	Tərcümə və mədəniyyət fakültəsi	Koreya-Azərbaycan dili tərcümə ixtisası (bakalavr) Magistratura(1994)
		Koreya Tədqiqatları Kitabxanası (Koreyaşünaslıq ilə bağlı vəsaitlər, 1370 nüxsə)	
2	Bakı Dövlət Universiteti(Baku State University)	Şərqşünaslıq fakültəsi, Uzaq Şərq dillləri və ədəbiyyatı	Koreya dili və ədəbiyyatı(bakalavr, 2007)
		"Seconq" kursları	
3	Bakı Mühəndislik Universiteti(Baku Engineering University)	Digər ixtisaslar daxilində koreyaşünaslıq proqramı	Koreya dili
4	Xəzər Universiteti (Khazar University)	Humanitar və Sosial Elmlər fakültəsi, Dil və ədəbiyyat fakültəsi	Koreya dili - 1, 2
5	Azərbaycan Texnologiya Universiteti(Azerbaijan Technology University)	Beynəlxalq Əlaqələr Mərkəzi, Koreya Mərkəzi	Qida Elmləri və Texnologiyaları fakültəsi, Turizm bölməsi (ikinci dil kimi)
6	Naxçıvan Dövlət Universiteti(Nakhchivan State University)	Koreya Mərkəzi	Koreya dili – ilkin səviyyə, orta səviyyə Koreya mədəniyyəti

Koreya universitetlərində Azərbaycan dili Hankuk Xarici Dillər Universitetinin Türkiyə-Azərbaycan fakültəsində tədris olunur.Azərbaycan dili türk dilləri arasında Türkiyə türkcəsi ilə daha çox yaxındır və bu səbəbdən bakalavrda türkdilləri qrupuna daxil olan digər dillərə nisbətən bu iki ölkənin dilinin mənimsədilməsi daha asan olur.

Türk dilləri və Koreya dili Altay dil ailəsinə mənsubdurlar və aqqlütinativ dillərdir. Bu ortaq xüsusiyyətlər Türk və Azərbaycan dilini öyrənənlərə dili asan və tez öyrənməyə imkan yaradan müsbət cəhətlərdəndir.

Cədvəl 2.Türk-Azərbaycan dili fakültəsi və Azərbaycan dilinin kurikulumu

Sıra №	Fənn	Semestr	Kredit
1	Yeni başlayanlar üçün Azərbaycan dili- 1 (Reading in Elementary Azeri 1)	2	2
2	Yeni başlayanlar üçün Azərbaycan dili- 2 (Reading in Elementary Azeri 2)	2	2
3	Azərbaycan dilində inşa(Azeri Composition)	2	2
4	Yeni başlayanlar üçün Azərbaycan dilində mətnin oxusu(Readings in Azeri Text)	2	2
5	Azərbaycan və Mərkəzi Asiyaşünaslıq	3	3
6	Türk regionunun mədəni məzmunları (Turkic Areas Cultural Contents)	2	2
7	Yeni başlayanlar üçün Azərbaycan dilində danışıq - 1 (Elementary Azeri Conversation 1)	3	2
8	Yeni başlayanlar üçün Azərbaycan dilində danışıq - 2 (Elementary Azeri Conversation 2)	3	2
9	Qafqazda iqtisadiyyat və enerji(Economy and Energy in Caucasus)	3	3
10	Türkiyə-Orta Asiya iqtisadiyyatına giriş	4	2

Türk-Azərbaycan dili fakültəsi Azərbaycanın dili, mədəniyyəti, siyasəti və iqtisadiyyatı kimi müxtəlif fənlərdən dərs almağa imkanyaradır. Eyni zamanda dil bacarıqlarının mənimsənilməsi ilə həmin regionu daha dərindən tədqiq edə bilmək üçün kurikulum tərtib olunub. Cədvəl 2-dən göründüyü kimi, Azərbaycan dili dərsləri "Yeni başlayanlar üçün Türk dili dərsləri" bitdikdən sonra aşağı kurslarda dil bacarıqlarının təkmilləşdirilməsi məqsədilə"Yeni başlayanlar üçün danışıq və oxu qabiliyyətlərini formalaşdıran dərslər", 3-cü və 4-cü kurslarda isə hər bir tələbənin fərdi maraq və qabiliyyətinə uyğun olaraq ixtisaslaşdırılmış sahələrdə istifadə edə bilmələri üçün "Regional dərslər" olaraq strukturlaşdırılıb.

İki ölkə arasında təhsil sahəsində digər mübadilə və əməkdaşlıqlar. Prezident No Mu Hyonun 2006-cı ildə Azərbaycana səfərindən sonra prezident İlham Əliyev 2007-ci ildə Koreyaya səfər edib. Bu zaman iki ölkə gəncləri arasında mübadilə və əməkdaşlıq məqsədilə Səhiyyə və Rifah Nazirliyi ilə Azərbaycanın Gənclər və İdman Nazirliyi arasında memorandum imzalanıb[1]. 2008-ci ildən bəri hər iki ölkədən hər il 10 gənc qarşılıqlı səfərlər edirlər və bu səfərlər vasitəsilə digər ölkənin mədəniyyətini, adət-ənənələrini, incəsənətini və s. təcrübədən keçirərək öyrənirlər. Bunun vasitəsi ilə də hər iki ölkə bir-birlərini mədəni cəhətdən tanımağıdaha da yaxşılaşdırmağa çalışır. Təxminən 10 gün davam edən proqram vasitəsilə Koreya və Azərbaycan gəncləri təcrübə mübadiləsi aparırlar və beynəlxalq bacarıqlarını inkişaf etdirirlər.

Aşağıda təqdim olunan Cədvəl 3-də Azərbaycan və Koreya universitetləri arasında imzalanmış müqavilələr vasitəsilə tələbə mübadiləsi kimi həyata keçirilən əməkdaşlığın cari vəziyyəti qısa şəkildə verilmişdir.

Bundan əlavə, ayrıca bir müqavilə bağlanmasa da, hər iki ölkə arasında sərbəst akademik mübadilə və ya xüsusi dəvət olunmuş nümayəndələrin məruzələri, tələbələrin ixtisasları ilə bağlı təcrübələri və təcrübə proqramları da həyata keçirilir.

[1] *Ölkələr arasında gənclərin qarşılıqlı mübadiləsi layihəsi 1979-cu ildən həyata keçirilir. Gənclərin beynəlxalq mübadilə proqramı üzrə hal-hazırda 36 ölkə ilə bağlanmış müqaviləyə əsasən gənclər qarşılıqlı səfərlər edirlər. Koreyalı gənclərin həmin ölkələrə səfər etmələri və təcrübə keçmələri, gənclərin fəaliyyətləri, yaşayış yeri, həmin ölkələrdəki önəmli müəssisələrə səfərlər və s. fəaliyyətlər mübadilə proqramında həyata keçirilir.*

Cədvəl 3. Hər iki ölkənin universitetləri arasında təhsil sahəsində əməkdaşlığın hazırki vəziyyəti[2]

Sıra №	Azərbaycan universitetləri	Koreya universitetləri
1	Azərbaycan Dilllər Universiteti	Koreya Xarici Dillər Universiteti Busan Xarici Dillər Universiteti
2	Naxçıvan Dövlət Universiteti	Kyunqsunq Universiteti
3	Bakı Mühəndislik Universiteti	İnha Universiteti
4	Bakı Dövlət Universiteti	Koreya Xarici Dillər Universiteti, Koreya Politexnik Universiteti
5	Azərbaycan Texnologiya Universiteti	Koreya Politexnik Universiteti
6	Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti	Koreya Milli İncəsənət Universiteti
7	ADA Universiteti	Koreya Xarici Dillər Universiteti

Yerli universitetlərdə əcnəbi tələbələrin sayı 2003-cü ildən 2019-cu ilə qədər mütəmadi olaraq artsa da, son günlər koronavirus (COVID-19)pandemiyası səbəbindən bir qədər azalma müşahidə olunur.

Təhsil Nazirliyinin paylaşdığı statistikaya əsasən 2021-ci ilin aprel ayına olan məlumatlara görə, Koreya universitetlərinə 152 281 nəfər tələbə qəbul olunub.Onların arasında ən çox beynəlxalq tələbənin gəldiyi ölkələr Çin, Vyetnam, Özbəkistan, Monqolustan, Yaponiya və ABŞ-dır ki, bunlar da Asiyadan olan beynəlxalq tələbələrlə müqayisədə daha çoxdur.Azərbaycandan gələn tələbələrin ümumi sayı 84 nəfərdir ki, bunlar da Koreyadakı xarici tələbələrin 0,06%-ni təşkil edir. Cədvəl 4-də Koreyada təhsil alan azərbaycanlı tələbələrin təhsil aldıqları sahələröz əksini tapıb.

Aşağıdakı cədvəldə göstərildiyi kimi, azərbaycanlı tələbələr arasında bakalavr pilləsində təhsil alanların içərisində Mühəndislik ixtisası daha çox yer tutsa da, magistratura və doktorantura da daxil olmaqla nəzərdən keçirsək, ümumilikdə məlum olur ki, humanitar və sosial elmlər üzrə beynəlxalq tələbələrin nisbəti daha yüksəkdir.

Cədvəl 4. Koreyadakı azərbaycanlı tələbələrin təhsil aldıqları sahələr

Dil kursu			15
Bakalavr (Kollec)		Humanitar və sosial elmlər	11
		Mühəndislik	21
		Təbiət elmləri	8
		İncəsənət və idman	1
Magistratura	Magistratura	Humanitar və sosial elmlər	18
		Mühəndislik	1
Doktorantura	Doktorantura	Humanitar və sosial elmlər	4
		Mühəndislik	1
Digər kurslar			4
Toplam			84

Koreya universitetlərinin xarici universitetlərlə beynəlxalq mübadilələri günü-gündən artsa da, tələbələr, əsasən, Amerika, Çin, Avstraliya və Yaponiya kimi ölkələrə meyillidirlər.

2 Bu hissə Təhsil Nazirliyinin "2021-ci ildə ali təhsil müəssisələri və universitetlər üzrə xarici tələbələrin cari vəziyyəti" haqqında məlumatlar əsasındahazırlanıb.

Bakalavr, magistratura və doktoranturaya birlikdə nəzər salsaq, koreyalı tələbələrin sayının çox olduğu regionlar Şimali Amerika > Asiya > Avropa > Okeaniya > Afrika > Mərkəzi və Cənubi Amerika sıralanmasında olduğu kimidir. Dil və digər təhsil məqsədləri üçün xaricdə təhsil alanlar da daxil olmaqla, koreyalı tələbələrin əksəriyyəti – təxminən 73%-i Şimali Amerika və Asiyada cəmləşib. Təhsil Nazirliyinin təqdim etdiyi statistik məlumatlara əsasən, 2008-2021-ci illər ərzində Azərbaycanda təhsil alan koreyalı tələbələrin cari vəziyyəti ilə aşağıda göstərilən Qrafik 1 vasitəsi ilə tanış ola bilərsiniz. 2021-ci ilin statistik məlumatlarına əsasən Azərbaycanda təhsil alan koreyalı tələbələrin hazırki vəziyyətinə nəzər salsaq, 4 dil kursu və 6 bakalavr tələbəsi, yəni ümumilikdə 10 tələbə var.Digər ölkələrlə müqayisədə tələbə mübadiləsi aşağı olsa da, iki ölkə arasında müxtəlif siyasi dəstəklər vasitəsilə dövlət təqaüd proqramları və ya universitetlərarası mübadilə və əməkdaşlıq artdıqca, tələbə mübadiləsinin də tədricən artacağı gözlənilir.

Qrafik 1.Azərbaycandakı koreyalı tələbələrin cari vəziyyəti (Təhsil Nazirliyi, 2021)



Koreya ilə Azərbaycan arasında əlaqələr siyasət, iqtisadiyyat, cəmiyyət, mədəniyyət və təhsil sahələrində müxtəlif mübadilə və sazişlər vasitəsilə inkişaf edir və buna görə də hər iki ölkənin dil və mədəni imkanlarına əsaslanmaqla daha makroskopik baxımdan peşəkar, istedadlı şəxsləri inkişaf etdirmək lazımdır. Azərbaycan iqtisadi liberallaşma yolu ilə sürətli iqtisadi artım nümayiş etdirir və resurs diplomatiyasının, tikinti biznesinin genişləndirilməsiilə Azərbaycan dilinə tələbat get-gedə artır. Koreyanın tikinti və inşaat sektoruüzrə bir sıra şirkətləri artıq Azərbaycana daxil olub.Azərbaycan vasitəsilə Türkiyə, Orta Asiya və İrana daxil olmaq istəyən şirkət və ya qurumlarda, eləcə də Koreyanın yeni şimal siyasəti ilə bağlı müxtəlif sahələrdə peşəkar beynəlxalq və regional ekspertlərə ehtiyac var. Bu baxımdan universitetlərarası və iki ölkə arasında fəal akademik mübadilə fəaliyyətləri vasitəsilə mükəmməl mütəxəssis qüvvəsi yetişdirilə və Asiya və Qafqaz regionunda daha sıx əməkdaşlıq əlaqələri yaradıla bilər.

"Xüsusi xarici dillərin tədrisinin təşviqi"layihəsi və xarici dil təhsili. Koreyada xarici dil təhsili siyasəti ilə əlaqədar olaraq 2016-cı ildə qanun qəbul edilmişdir və bu qanun əsasında dəstəklənən "Xüsusi xarici dillərin tədrisinin təşviqi (Critical Foreign Languages Education Promotion)" adlı layihə mövcuddur.

"Xüsusi xarici dil (CFL, CriticalForeignLanguages)" dedikdə ölkənin inkişafı üçün strateji olaraq ehtiyac duyulan və prezident tərəfindən təyin olunan dillər nəzərdə tutulur. Toplamda 53[3]belə dil vardır.

Bu layihənin həyata keçirilməsinin əsas səbəblərindən biri Koreyanın strateji regionlara çıxışına və mübadiləyə hazırlıqlı olması üçün peşəkarlara olan tələbatı artırmaq, eləcə də strateji ölkə ilə bağlı məlumatların genişləndirilməsidir.Bu məqsədlə gənclərin işsizlik problemini həll etmək üçün xarici ölkələrdə məşğulluq və startap kimi yeni iş yerlərinin yaradılmasına ehtiyac var.

ABŞ-da federal hökumət və peşəkar təhsil müəssisələri amerikalıların dil təhsili üçün milli təşəbbüs olan "Language Flagship" proqramı vasitəsilə xüsusi xarici dillərdə qlobal mütəxəssislər yetişdirirlər. Bir çox universitetlər bu proqramlar şəbəkəsindən istifadə etməklə xüsusi xarici dillərdə qlobal mütəxəssislərin gələcək nəslini inkişaf etdirməyi qarşılarına məqsəd qoyublar.

[3]*18 Avropa dili, 7 Avrasiya dili (Azərbaycan dili Avrasiya dili kateqoriyasına aiddir), 14 Hind-ASEAN dili, 12 Yaxın Şərq- Afrika dili və 2 Latın Amerika dilinə bölünür.*

Koreyada 2017-ci ildən 2021-ci ilədək ilk beşillikdə "Xüsusi xarici dillərin tədrisinin təşviqi" layihəsi 15 dili əhatə etdi.

2022-ci ildən etibarən isə ikinci bir layihəyə başlanılıb. Həmin layihəyə 5[4] yeni dil əlavə olunub və beləliklə, dillərin sayı 20-yə çatıb.Bu xarici dillərin təşviqinə hər zaman müəyyən dəstəklər olunur. Hər bir dildə təcrübəsi olan xarici dil mütəxəssislərini yetişdirmək üçün təqaüdlər ayrılır, bakalavr, magistratura, doktorantura pillələri proqramlarına müxtəlif dəstəklər edilir. Bundan əlavə, tədris materialları, qiymətləndirmə sualları,"K-MOOC" kimi onlayn əlavə təhsil məzmunlarının hazırlanması və s.tədqiqat layihələri vasitəsilə təhsil əsasının yaradılmasına kömək edilir. Onlar təkcə əlaqədar fakültələrin tələbələrinə deyil, ictimaiyyətə də pulsuz təqdim olunur və bütün bunlar təhsil imkanlarını genişləndirir.

Azərbaycan dili hələ rəsmi olaraq hədəf dil kimi seçilməyib. Ancaq ilkin mərhələdə seçilən türkcəyə yaxın dil olduğundan layihədən kiçik dəstək alır və gələcəkdə hədəf dillərdən olacağı gözlənilir. Məsələn, layihənin ilkin mərhələsində hədəf dil olaraq seçilən tay dilinə yaxın dil olaraq seçilmiş laos dili 2022-ci ildə layihənin ikinci mərhələsində yeni hədəf dil olaraq seçilmişdir. Hazırda tədris materiallarının hazırlanması, tələbələr üçün təqaüdlərin verilməsi, müxtəlif təhsil proqramlarının yaradılması kimi fəaliyyətlər sayəsində dövlət dəstəyinin əhatə dairəsidaha da genişləndirilib.

Azərbaycan ilə iqtisadi, sosial və mədəni mübadilə baxımından ticarətin miqyası, iqtisadi göstəricilər və əməkdaşlıq sahələrində inkişaf artdığına görə və türkcəyə yaxın dil olduğundan ikinci mərhələdə də fakültə və ya adi insanlar üçün nəzərdə tutulmuş dil proqramları üzrə dəstəklər davamlı şəkildə artırılmalıdır. Onun əsas dil olması üçün dəstək lazım olduğunu insanlara xatırlatmağa daim ehtiyac var.

Təklif. Koreyada dövlət sektoru, özəl sektor, təhsil sektoru kimi müxtəlif sahələrdə türk dilinə tələbat durmadan artır vəinfrastruktur və tikinti layihələrinin genişlənməsi ilə Azərbaycan dilinə də tələbat günü-gündən artır. Milli mübadilə və əməkdaşlıq istər-istəməz qarşılıqlı anlaşma və strateji yanaşmalar üçün hər bir ölkənin düşüncə və mədəniyyətini dərk etmək üçün əsas olan dil təhsilinin zəruriliyini artırır.

Nəticə. 2021-ci ilin aprel ayında "Xüsusi xarici dillər şəbəkəsi"nin yaradılması və mübadilənin həyata keçirilməsi üçün 12 ölkə səfirinin iştirak etdiyi CFL Səfirlər Forumu keçirilib. Azərbaycan Respublikasının Koreyadakı səfiri Rəmzi Teymurov da qeyd etdiyim Foruma qatılmış və Azərbaycan haqqında, hər iki ölkə arasındakı mübadilələr və s. barədə məlumatlar vermişdir. Dil və mədəniyyətə əsaslanan təhsil sahəsində əməkdaşlıq təkcə insan mübadiləsi demək deyil, bu həm də müxtəlif fundamental və tətbiqi sahələrdə tədqiqat mübadiləsinə və bir sıra sahələrdə texniki əməkdaşlığa səbəb ola bilər.

Azərbaycan və Koreya arasında iqtisadi və mədəni mübadilələrin sürətlə genişlənməsi sayəsində gələcəkdə də təhsil sahəsində əməkdaşlığa fəal dəstəyin olacağına, həmçinin digər sahələrdə də tədqiqat və əməkdaşlığın artacağına ümid edirəm.

Referans

1. 외교부 (2019) 아제르바이잔개황, 외교부유럽국중유럽과
2. 교육통계서비스 http://kess.kedi.re.kr
3. 교육부, 국외(유학)교육통계자료
4. https://www.moe.go.kr/boardCnts/view.do?boardID=350&boardSeq=90124&lev=0&searchType=null&statusYN=W&page=1&s=moe&m=0309&opType=N
5. 한국국제교류재단통계센터 https://www.kf.or.kr/koreanstudies/koreaStudiesMap.do
6. 한국외국어대학교터키아제르바이잔어과 turkazeri.hufs.ac.kr
7. 한국외국어대학교특수외국어교육진흥원 cfl.ac.kr
8. 특수외국어교육진흥사업 cfl.niied.go.kr

[4] *(2022-2026)2-ci mərhələdə seçilmiş 5 hədəf dil: holland, laos, isveç, italyan, qazax.*

UOT: 811. 512. 162.

TÜRK MƏNŞƏLİ TƏXƏLLÜSLƏR VƏ ŞƏRQİ SLAVYAN AD SİSTEMİNDƏ YERİ

Minaxanım Nuriyeva Təkləli
Filologiya elmləri doktoru, professor
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı, Azərbaycan
proftomris@gmail.com
Orcid: 0000-0002-4985-813

Xülasə

Məqalədə rus dilindəki türk elementləri çox qədim tarixdən o dilinin bütün semantik qruplarına, terminologiyasına və onomastik sisteminə də nüfuz etdiyi göstərilir. Yazıda məqsəd rus müəlliflərinin istifadə etdiyi türkmənşəli təxəllüslərin bir çox xüsusiyyətlərini üzə çıxarmaqdır. Aydın olur ki, rus o cümlədən Ukrayna, Belorus cəmiyyətində təxəllüslərə maraq və meyllərin səbəbi müxtəlif olmuşdur. Burada türkmənşəli təxəllüslərin geniş və davamlı şəkildə işlədilməsi halları bir neçə səbəblə bağlı idi. Bu ən çox türk xalqlarının dilləri, tarixi, etnoqrafiyası sahəsində çalışan alimlərin, yazıçıların türk xalqlarının tarixinə, dilinə və türk sivilizasiyasına böyük maraqları ilə əlaqədardı. Bir sıra böyük şəxsiyyətlərin türk yer, şəxs adından təxəllüs kimi istifadə etmələri onların etnik mənşəyinin türklərlə bağlı olması səbəbindən doğur. Bundan başqa bir də rus ziyalılarının - sənət adamlarının, xüsusən mətbuat işçilərinin ekzotik adlara meyli ilə bağlıdır. Rus dilində mövcud olan türkizmlər alındığı kimi, türk ölkə və şəhər adları arasından, bədii personaj adları sırasından seçilərək işlənə bilərdi. Məqalənin bir əhəmiyyəti də ondadır ki, mövzu az öyrənilmiş sahəyə həsr olunmaqla Şərqi Slavyan dilərindəki türkmənşəli sözlərin həmin dillərdə mövqeyini, yerini tam şəkildə bərpa edir.

Açar sözlər: təxəllüs, türkmənşəli sözlər, şərqi slavyan, rus müəllifləri

A PSEUDONYM OF TURKİC ORİGİN AND THEİR PLACE İN THE SYSTEM OF EAST SlAVİC NAMES

Minakhanim Nuriyeva Tekleli
Doctor of philological sciences, professor
Azerbaijan State Pedagogical University
Baku, Azerbaijan

Summary

The article shows that Turkish elements in the Russian language penetrated all the semantic groups, terminology and onomastic system of that language since ancient times. The purpose of the article is to reveal many features of pseudonyms of Turkic origin used by Russian authors. It is clear that the reasons for the interest and tendencies in pseudonyms in the Russian, Ukrainian and Belarusian society were different. here were several reasons for the widespread and continuous use of pseudonyms of Turkic origin. This was mostly related to the great interest of scientists and writers working with the languages, history, and ethnography of the Turkic peoples in the history, language, and Turkish civilization of the Turkic peoples. The fact that a number of great personalities used the name of a Turkish place or person as a pseudonym arose because their ethnic origin was related to the Turks. Another thing was related to the tendency of Russian intellectuals - artists, especially press workers - to exotic names. Such names could be selected from among the Turkish country and city names, as well as from the names of artistic characters, just as they were taken from Turkisms existing in the Russian language. One of the importance of the article is that it fully restores the position and place of words of Turkic origin in East Slavic languages by dedicating it to a little-studied field.

Key words: pseudonym, Turk origin, East Slavic, Russian authors

ПСЕВДОНИМ ТЮРКСКОГО ПРОИСХОЖДЕНИЯ И ИХ МЕСТО В СИСТЕМЕ ВОСТОЧНОСЛАВЯНСКИХ ИМЕН

Минаханум Нуриева Теклели
Доктор филологических наук, профессор
Азербайджанский Государственный Педагогический Университет
Баку, Азербайджан

Резюме

В статье показано, что тюркские элементы в русском языке с древнейших времен проникли во все семантические группы, терминологию и ономастическую систему этого языка. Цель статьи заключается в выявлении многих особенностей псевдонимов тюркского происхождения, используемых русскими авторами. Известно, что причины интереса и тенденции к псевдонимам в русском, украинском и белорусском обществе были разными. Причин широкого и постоянного использования псевдонимов тюркского происхождения было несколько. Во многом это было связано с большим интересом ученых и писателей, занимающихся языками, историей и этнографией тюркских народов, к истории, языку и тюркской цивилизации тюркских народов. Тот факт, что ряд великих личностей использовал в качестве псевдонима название турецкого места или лица, возник из-за того, что их этническое происхождение было связано с тюрками. Другое дело было связано со склонностью русской интеллигенции — художников, особенно работников печати — к экзотическим именам. Такие имена могли быть выбраны из числа тюркских названий страны и города, а также из имен художественных персонажей, подобно тому, как они брались из существующих в русском языке тюркизмов. Одно из значений статьи состоит в том, что она полностью восстанавливает положение и место слов тюркского происхождения в восточнославянских языках, посвятив ее малоизученной области.

Ключевые слова: псевдоним, туркское происхождение, восточнославянские, русские авторы.

Aktuallıq. Şərqi Slavyan dillərindəki Türk mənşəli sözlər bu dillərin leksikasının demək olar ki, bütün sahələrinə yayıldığı kimi onomastik sisteminə də nüfuz edə bilmişdir. Məqalədə ümumişlək sözlər səciyyəsində Rus dili leksikasında möhkəm yer tutmuş Türk dillərinə məxsus sözlərin iştirakı ilə yaradılmış ədəbi təxəllüslərin formalaşma üsulları, bu dildə və Şərqi Slavyan xalqları tarixində yeri, dilin antroponimik sistemində mövqeyi ilk dəfə araşdırmaya cəlb olunmuşdur.

Annotasiya. Məqalədə Rus yazışı və şairlərinin, habelə elm, mədəniyyət xadimlərinin istifadə etdiyi türk mənşəli təxəllüslərdən, onların bir sıra işlənmə özəlliklərindən bəhs olunur. Araşdırma nəticəsində aydın olur ki, bu təxəllüslərin istifadə olunması xüsusi məqsədlərlə bağlıdır; əsasən Türk xalqları ilə bağlı fəaliyyətdə seçilmiş mövzular müəllifin həmin məsələlərə bələdliyini göstərir.

Metod. Məqalədə təsviri, tarixi-müqayisəli və müasir dilçilik metodlarından istifadə edilmişdir.

Giriş. Türk xalqları dünyanın bir çox mədəni xalqları ilə sıx və davamlı münasibətlər qura bilmişdir. Bu faktdır. Odur ki, Türk etnosunun, dillərinin qədim və aparıcı mövqeyini işıqlandırılmaqla yanaşı, mütləq onun digər xalqlarla olan əlaqələri də önə çəkilməlidir. Bizi düşündürən nöqtə bu münasibətlərin canlılığı və bu təmasın yaxınlığıdır. Rus dilindəki Türk elementləri Türk-Slav xalqlarının qədim və zəngin münasibətləri fonunda inkişaf etmiş davamlı bir prosesin nəticəsidir. Zaman-zaman irəliləyən Rus-Türk əlaqələri və münasibətləri nəticəsində türk mənşəli sözlər çox- çox əvvəldən Rus dilinin bütün semantik qruplarına, terminologiyasına və onomastik sisteminə nüfuz etmişdir. Bu mövzunun araşdırılması nəticəsində bir daha əmin olursan ki, Rus dilinin onomastik sistemi özü belə bu təsirdən kənarda qala bilməmişdir. Belə ki, Rus soyadlarının mühüm bir qismini – onun mühüm hissəsini Türk mənşəli soyadları təşkil edir[7,23]Bu xüsusiyyətə böyük əhəmiyyət verən Nikolay Baskakov Rus dilindəki sanballı Türk onomastikasının, xüsusən antroponimlərinin öyrənilməsi təkcə linqvistlər üçün deyil, tarixçilər üçün də böyük əhəmiyyət kəsb edir [1, 5-6] deməklə fikrimizi həqiqətən həmin hadisənin dərin tarixi köklərinə

yönəldir. Bu baxımdan diqqəti cəlb edən əsas məsələlərdən biri və ya birincisi müxtəlif dillərə məxsus olan Rus və Türk dillərinin münasibətidir: Türk dillərinə məxsus sözlərindən Rus aydınlarına təxəllüs olaraq yararlı olmasıdır.

Türk sözləri slavyan dilinə və beləliklə də Rus dili leksikasının bütün sahələrinə, eləcə də onomastik sisteminə də keçmiş, geniş yayılmışdır. Tarixçi-filoloq Nikolay Baskakovun göstərdiyi kimi, türk dillərinin Şərqi Slavyan dillərinə nüfuzu qeyri-adi dərəcədə çoxşaxəlidir. Əslində bu dillərdəki Türk onomastikasını – xüsusi adların öyrənilməsi təkcə dilçilər üçün deyil, həm də tarixçilər üçün böyük əhəmiyyət kəsb edir. [1, 5]. Bu məqsədlə Rus dilində Türk mənşəli təxəllüslərin etimoloji yöndən araşdırılmasını gərəkli hesab etdik. Çünki, "Rus dilində türk sözlərinin aşkarlaması, tədqiqi və lüğıtləşdirilməsi bu sözlərin Rus dilində ən erkən dövrlərdən bu günə kimi fəal işlənməsini və bu dil vahidlərinin potensial imkanlarını, habelə digər dil sistemlərində güclü mövqe tutmasını, mənimsədildiyini təsdiq edir. [2, 283]. Göründüyü kimi, Rus dilindəki Türk sözləri arasında Türk mənşəli soyadlar güclü təbəqə təşkil etdiyi kimi, rusların tarixi şəxsiyyətləri – yazıçıları, alimləri, siyasi və ictimai xadimləri tərəfindən Türk təxəllüslərindən istifadə edilməsi də geniş yayılmışdır. Fikrimizcə, tədqiqata cəlb olunmuş Rus soyad və təxəllüslərinin yaranma və işlədilmə yollarının müəyyən edilməsi onların yaratdığı Türk mənşəli sözlərin həmin mühitdə tam mənasıyla başa düşülən vasitələr sırasında olduğunu göstərir.[7,209] Rus dilində əsrlər boyu yaşamış Türk sözləri bu dilin mənşə etibarı ilə öz sözləri ilə bir sırada təxəllüs kimi işlənmişdir: bazar– Bazarov, tarakan– Tarakanov, arkan - Arkan, arsin-Arşinov, atlas–Atlas, karandaş–Karandaş. , kurqan–Kurqanov, almas –Almaz, baqatur–Baqatur,esaul- Esaul, arbuz– Arbuzov, bayar-Bayar, kaftan–Kaftanov, izyum – İzyumov, kumaç– Kumaçov, tütün– Tütüncüoğlu, kolpak–Kolpakov, urman – Urmanov, tuqay-Tuqay, tuman – Tumanov, .apka- Şapkin, şalaş – Şalaşkin...[7,210]

– Rus dilində arxaikləşmiş türkizmlərdən təxəllüs olaraq istifadə edilmiş: Talanov, Tamga, Tesakov, Uşkuynik, Tolmaçev, Tarxanov, Murzin, Ertaul, Seunşik, Nabatov, Ulan, Sayqatski (saygat-sivgat "harb kanimeti, trofey"), Sagaydaçnı, Sazandar, Rında, Divov, Sardar, Şlıkova, Yüzbaşeva, Çumak, Esaul, Baratov, Arşinov, Erlıkov…

– Canlı Rus ağızlarından alınmış Türk sözlərindən yaranan yapma adlar. Bellə adların ən çox ekzotik etkilər yaratmaq məqsədi ilə işləndiyi güman olunur: Sarınçı, Barança, Biçara, Yok, Aziz, Kara, Kardaşov, Belmesov, Bul-Bul Murza, Kaçalov, Tugan, Çinarik, Çekalov, Duvannıy, Yamanov, Yalquzidze, Ulusnik, Taz Başi, Bazıkin, Baykuş, Kaçalov, Tınış, Tanış, Haberdar, Çinarin,Çelışev, Çağılgan("kıvılcım"), Sırtlanov, Salamatov, Şişov, Alim(nadan, savadsız), Bilik (Masalcı), Burkun ("Deyingən"), Bestalannıy("talan"sözündən) ...

– Türk tarixi şəxsiyyət adlarından təxəllüs üçün istifadə olunmuşdur: Konçak, Yagmurça, Aksak Timur, Kuçum, Kazi bek, Kantemir, Abaqa, Abaginski, Mirza Turgen, Baydar, Sadık Paşa, İtlar, Eruslan, Orkan, Şax Aziz, Yasar bek, Uşakov, Leylixanov, Celalettin, Burunday, Kuluntay, Berendey, Ugadaev ...

– Türk şəxs adları Rus yazıçılarının təxəllüslərinə dönüşmüşdür. Bu zaman adlar için yaygın Türk adları seçilmişdir: Ali, Alyar, Leyla, Aladin, Mustafa, Mansur, Bulat, Enver, Saib, Kazem, Nadir, Alikber, Agacanova, Babacanov, Nur, Nazim, Kızıl, Oluk, Klıç, İrimbet, İnsar, Zuleyxa Ferrux, Gülnar...

–Türk yer adlarından yaranan Rus təxəllüsləri: Karadakski, Kuban, Karamışev, Araksov, Arazi, Altayski, Angarov, Angarski, Arazi, Bakinski, Baydarov, Baykalov,Baş Kurt, Hamar-Dabanov, Hamadanski Aleksandr, Arabat, İrkutov, Sın İrtışa (İrtış oğlu), Samarin, Sarıkamışski, Stambulin, Türkestanski, Taşkendski, Terek, Xatunski, Xvalınski,Çesmenski, Uralov, Saksakanski, Samarin, Simbirski, Sibiryak, Sayanov, Seuk-Su, Aldanov, Sucanski ...

–Türk soy, millət adlarından Rus təxəllüsləri yaradılmışdır: Peçenek, Berendey, Hazar, Hvalinsk, Avarova, Kuban, Uzbek, Tatarov, Turçaninov, Kazak, Kirgizov, Baş Kurt, Kuban, Çerkasin, Çagat, Kumanin, Skif, Bulgarin, Bolgarski ...

–Türk kökənli titul ve ünvanlarından: Şax, Şaxovski, Aga, Bek, Xanova, Şelebi (Çelebi), Oyunski(oyun "şaman"), Murza, Tarxanov, Çabanski, Turxanov, Sultanzade, Kagan, Sanin, Sardar,

Kafur Aga, Baş Efendi, Kan Temir, Karbalay Raxim aga, Koçubey, Kanev, Kalif, Kazı bek, Kaysarov, Kiçibey, Koşevoy, Erke, Boyarski, Boyarkov…

– Türk kökənli Rus soyadları bir də təxəllüslər olaraq istifadə olunmuşdur: Toporkov, Tumanski, Çekmaryev, Çebotıryev, Çubarov, Kirpiçev, Almazov, Epançin, Kolçak, Karavaev, Arbuzov, Karaulov, Kumaç, Karmanov, Karauloda, Balakirov, Baklanov, Balalaykin, Bars, Barışeva, Basmanov, Bulgakov, Baskakov, Tolmaçev, Sablin, Safyanov, Tarakanov, Tanayev, Taranov...

Əvvəla deyək ki, təxəllüslər ədəbi cəmiyyət və təşkilatlarda soyadlara nisbətən daha geniş istifadə olunur və sürətlə yayılırdı. Amma onu da qeyd edək ki, onlardan bəziləri yalnız daima deyil, şəraitə uyğun – yazışmalarda, polemik söhbətlərdə və s. istifadə olunurdu. Müvafiq olaraq, təxəllüslərdən istifadə zamanı iki hal müşahidə olunur: müəllifin bütün yaradıcılığı müddətində istifadə etdiyi təxəllüslər olduğu kimi, konkret mövzuya aid olan və ya məhdud ərazidə işlənən təxəllüslər də vardır. Məsələn, Rus tanınmış yazıçısı Aleksandr Kuprin ailə məktublarını öz xristian isminin Şərq tərzindəki variantı olan İsgəndər adıyla imzalayırdı. Yazıçı Maksim Qorkinin də daimi təxəllüsü Qorki "Acı" olsa da onun bahadır Eruslan// Eraslan//Arslan adıyla imzaladığı əsərləri də olmuşdu [3, 212]. Qorkinin gənclik illərində ilk yaradıcılıq örnəklərinə atdığı imzalar içində Başlık adı da vardı. Bildiyimiz üzrə Rus dilindəki Türk kökənli dil elementlərindən olan başlık sözünün bir sıra mənaları vardır: başlık– üst geyimin başı qapadan papaq biçimli qismi, kapüşon və başlık: ataman, başqan, ağsaqqal demektir. Bunlardan əlavə gələcək "proletar ədibimiz" Volqa çayı sahillərində çapovulçu ataman Başlık isimli qaçaq barədə də çox əhvalatlar eşitmiş, bunlar gənc sənətkarı möhkəm təsirlndirmişdi. Nəticədə, hüsni-rəğbət bəslədiyi adı özünə təxəllüs olaraq alıb qullanmışdı. [3, 96; 7, 61-62]. Təxəllüslərə münasibətdə şair Lermontov bir elə də fəal olmamışdır. Amma bəzi şeirlərini "qr. Diyarbekir" (yəni, Diyarbəkir vətəndaşı") imzası ilə imzalamışdı [3, 212]. Bu imza o illlərdəki Rus-Türk müharibəsi və Rus hökumətinin Qafqaz ölkələrində uzun illər sürdürdüyü işğalçı savaşları sonuçlarında gənc şairin yeni ölkələr və yeni mövzulara ilgisini əks edir, daimi xarakter alan Rus-Türk münaqişələri üzündən belə adlar artıq uzaq, anlaşılmaz adlar deyildi. Yadlıglarını, özgəliklərini saxlamaqla hər gün eşidilən, cəmiyyətə tanış sözlər idi.

Seçdiyi imza altında ideyasını, məqsətini həyata keçirən yazıçı ictimaiyyət içində çox zaman təxəllüsü ilə tanınınır: Ünlü Ukrayna-Rus dramaturqu və səhnə sənətkarı Saksakanskinin (Saksakan-yazıçının doğulduğu qəsəbənin adı) əsil adı Panas Tobileviçdir (1859-1940). Tarixi əsərlər müəllifi Dmitri Petrov (1900-1977) özünün Biryuk təxəllüsünü ömrü boyu soyadı səviyyəsində işlətmişdi. [3,194] Rus dilində Türk sözü biryuk iki məna daşımaqdadır: börü, qurd; tənha adam, yalquzaq [6,1,159; 1,234]; (Фасмер,1,168) Və yaxud, Leyla təxəllüsü ilə tanınan Rus yazıçısı və tərcüməçisi Ahmatova Lizavetadır (1820-1904). [6. 2,115]; Rus aktyoru Vasili Şveruboviç (1875-1948) yalnız Kaçalov (kaçal "keçəl, dazbaş") adı ilə tanındı və bu soyadını ömürlük işlətdi. Kaçalov kimi Kaçalkin və Kaçal soyadları da canlı Rus ağızlarındakı Türk kökənli sözlər əsasında yaradılmışdı. [6, 2, 58, 17, 44].

Rus dilindəki Türk təxəllüslərinin böyük bir qrupu sənətkarın mənşəyinə görə bağlı olduğu türk soyları - əcdadlarının adı təşkil edır. Dediyiniz odur ki, xüsusən qıpçaq-slavyan münasibətləri dövründə ruslara qaynayıb qarışan türk Buninlərinin nümayəndəsi, Nobel mükafatı laureatı Rus yazıçısı İvan Bunin ilk məqalələrini Çubarov imzası ilə "Orlovski vestnik" jurnalında dərc etdirmişdi. Bu müəllifin anasının soyadı idi: Çubarovlar da Buninlər kimi türk əsilli idilər. Onun çubar soyadı "çopur, ala-bula, xallı" sözü ilə bağlı idi. [8, 1895:3., 2153, 2185; 6. 3, 239; 4, 4.,375]. Bir daha məsələni dəqiqləşdirsək, türk imzalarına artan meyl sonradan xristianlaşdırılan qeyri-rus: çuvaşlar, sakalar, çeremis, mordva, udmurlar arasında geniş vüsət almışdı [8, 10]

Məşhur rus yazıçısı Aleksey Tolstoy yaradıcılığının ilk illərində Mirzə Turgen təxəllüsündən istifadə edirdi; anası Turgenevlərdən idi. Məşhur Rus ailələrindən olan bütün Turgenevlərin, o cümlədən böyük Rus yazıçısı İvan Turgenyevin (1818-1883) ulu babası, 1440-cı ildə xristianlığı qəbul edən Qızıl Orda xanı Turgen Murza idi. Adın kökündə türk-moğol mənşəli "iti, coşqun, dəlisov" mənasında turgen sözü dururdu. [1,155; 7.119]. Bu nümunədən çox gətirmək olar. Tarixi mənbələr Rusiya dövlətinin tarixində mühüm rol oynamış Knyaz Qolitsinlərin əslən Bulqak xandan törəmiş olduqlarını göstərir. Rusiyaya böyük dövlət xadimləri bəxş etmiş bu ailədən olan yazıçı

Nikolay Qolitsin (1794-1866) ədəbi-bədii yaradıcılığında Bulqak "narahat, çılğın adam, dəli" təxəllüsü özünə götürür. [6.1, 172;1, 48]

Çox məşhur rus şairi Anna Axmatovanın əsl soyadı Qorenko, ər soyadı isə Qumilev idi. Lakin bunlara məhəl qoymayaraq anasının qızlıq soyadını istifadə etməyə başladı. Anasının soyadı ulu babası Ahmat xandan gəlirdi. Bəzi mənbələr şairin 17 yaşı tamam olan kimi rəsmi soyad kimi Ahmatova götürdüyünü yazmışdı. Şairin bir ömür boyu istifadə etdiyi və məşhurlaşdığı Ahmatova soyadı o qədər geniş yayılmışdı ki, onun əslində təxəllüs olduğuna kimsəni inandırmaq çətin idi. Böyük Rus şairi və dövlət adamı olan Qavriil Derjavin (1743-1816) özü bilərəkdən "Potomok Atillı" (Atilanın varisi) və "Jitel reki Ra" (Ra çayı sakini) təxəllüslərini işlədirdi. Öz türk əsil-nəsəbini bilir, şeirlərində bunu yarı zarafat, yarı kinayəli tərzdə qeyd edirdi. Derjavinin Altın Orda əyanlarından olan Bagrım Mirzənin nəslindən olmasını tarixçilər də, filoloqlar da, eləcə də şairin bioqrafları da dönmədən təkrar etmişdilər. 1773-cü ildə özünün ilk odalarını belə imzalamıştı. Ama ona şöhrət və uğur gətirən "Felitsa" mədhiyyəsini "Tatar Murzası" adı ilə imzalayırdı [8,5]

Təxəllüslərdə işlənən Türk sözləri Rus mühitində başa düşülən, əsrlər boyu işlənən və yenə bu dilin lüğət tərkibində indi də sabit yer tutan sözlər idi: Şater-Şatrov, kirpiç- Kirpiçev, çulok- Çulkov, karman – Karmanov, Karmannikov, kalaç - Kalaçev, kalita-Kalitin, barış- Barışevski, Barışeva, barsuk - Barsukova, bars - Barsov,arşin - Arşinov və s. 17-ci əsr böyük dövlət adamı Erofey İvanov "Almaz" ləqəbilə məşhur idi[1,44]. Bu ləqəb - ad getdikcə onun rəsmi soyadına çevrildi. Kononovun bildirdiyinə görə o, saflıq, möhkəmlik və əzəmət rəmzi olan "Almaz" ləqəbini özünün gözəl keyfiyyətlərinə görə qazanmışdı [5, 23]. Onun müasiri səyyah Adam Oleari onunla görüşmüş, ağlına, istedadına heyran qaldığı bu adamdan hər yerdə "Almaz" deyə bəhs etmişdi.

XIX əsrin sonlarında fəaliyyət göstərmiş qəzetçi Lev Dmitriyev özünün Lev adının Türk qarşılığı olan Arslan adını təxəllüs olaraq götürmüşdü [6. 1,110], eləcə də Volkov İvan (volk "qurt, börü") Biryukov [1,234; 4.1, 168], Ukrayna tarixçisi və etnoqraf Draqomanov Mixail isə dilmanc adının Avropalaşmış soyadını tatarcadakı tolmaç sözüylə əvəz etməklə Tolmaçev [6. 3,170; 4. 4, 72] təxəllüsü altında yazıb yaratmışdı.

Seçilmiş Türk təxəllüsü çox vaxt peşə ilə əlaqələndirilirdi. Tanınmış Şərq etnoqrafı Osip Senkovskinin yazılarında "Tütüncüoğlu Mustafa Ağa" təxəllüsünü götürməsinin səbəbi onun şərqşünaslıq fəaliyyəti ilə bağlıdır. [3, 212] Məşhur türkoloq Qordlevski, "Türk", etnoqraf Maslov "Alim" (Bilgin) ləqəbini daşıyırdı. Burlak (təmiz sularda çay gəmilərini çəkən fəhlə; dənizçi) təxəllüsü daşıyan aktyor Andreyev əslində gəncliyində gəmidə işləyirmiş. Rus şairi Kurocgin öz sənətinə görə həkim olduğu üçün yaradıcılığında "Həkim", "Həkimov" soyadını daşımışdır. Etnoqraf - yazıçı Mitropolskinin qullandığı Ak Baş, Ak Başev("Ağ baş türklərin təmiz qırxılmış başlarına işarədir (Радлов I,90), Çuvaş şairi Nikolay Polorusovin Şelebi (Çelebi) təxəllüsü, əsas sənəti arxeoloq olan yazıçı Obruçevin Aksakal, yazıçı Potoskuyevin Baykuşev təxəllüsündən istifadə etməsi (Baykuş adının mənası isə Rus dilində "yoxsul, dilənçi" (Türk dillərindəki yoxsulluk, miskinlik simvolu olan baykuş sözü ilə əlaqədardır [9.1,424; 4.1,107; 6. 1,143] hamısı onların məsləki və xidməti işi ilə əlaqədar olaraq seçilmişdi. Rus xalq artisti Nabatov (əsl adı Turovskidir (1896-1977) bu təxəllüsdən istifadə etməsi, cəmiyyətə borcu, xidməti ilə bağlı idi. (əsli ərəb) nabat rus dilində "dəvət, çağırış, həyəcan rəmzi" mənasını verirdi. Bu təxəllüs onun həyat borcunu, məqsədini və borcunu açıq şəkildə ifadə edirdi. Estrada sənətkarı idi, beynəlxalq mövzularda şeirlər oxuyurdu. O, ömrü boyu Nabatov soyadı ilə məşhurlaşdı. Türkcə (əsli ərəb) nabat sözü rus dilində "dəvət, çağırış, həyəcan işarəsi" mənasını verirdi. Bu təxəllüs onun həyat yolunu, məqsədini və borcunu açıq şəkildə ifadə edirdi.

Müşahidələrimiz göstərdi ki, ədəbi-bədii ləqəb-təxəllüsün böyük bir hissəsi həmin şəxsin yaradıcılığına, fəaliyyət sahəsinə, daha doğrusu, sənətinə, peşəsinə, məşğuliyyətinə münasibətdə seçilmişdir. Bu niyyətlə az əvvəl göstərdiyimiz nümunələrə yenilərini əlavə edə bilərik. Bütün bunlar həmin şəxsiyyətlərin türk xalqlarının dərin və köklü etnoqrafik və tarixi incəliklərindən asılı olduğunu göstərməkdədir. Ədəbi iş təcrübəsi nəticəsində aydın olur ki, təxəllüslərdən istifadənin səbəbləri daha çox siyasi şərait və senzura şərtləri ilə bağlı olmuşdur: Sənətkarın şəxsiyyətini, kimliyini tamamilə gizlətmək, onu hər cür şübhələrdən uzaq tutmaq: 1842-ci ildə "Biblioteka dlya çtenie" jurnalında yayınlanmış "Qafqazda saxtakarlıqlar" romanında buradakı yüksək məmurların

Dövlət xəzinəsini çalıb-çapıb talan etmələri və s. açıq şəkildə nümayiş etdirildi. Əsərlə tanış olan çar I Nikolay Çernişevedəki hərbi nazirdən heyrətləndi: deməli, biz Qafqazı tanımırmışıq; bu müəllif bizim gözümüzü açdı. [3,202] Müəllif isə tanınmamaq üçün romana ekzotik təxəllüslə, Buryatiyada böyük bir dağın adı ilə imza atıb: Hamar Dabanov. Həyat yoldaşının xidməti ilə bağlı Qafqazda yaşayan Laçınova soyadlı qadın da bu təxəllüsü ilə ədəbiyyat tarixinə düşdü. [6. 3, 214; 3,202]. Digər buna bənzər misal: tanınmış ukraynalı yazıçı, xüsusən də "Azadlıq", "Novorossiyada qaçaqlar", "Yandırılmış Moskva", "Knyajna Tarakanova" kimi tarixi əsərləri ilə geniş şöhrət tapdığında, müəllifini tam məxfi saxlamaq arzusu ilə qadın adından və soyadından istifadə edir. "Sarafanova" (sarafan qədim üst geysinin adıdır) imzalamışdır. [6, IV, 157; 10, 126].

Rus dilində Türk mənşəli sözlər əsrlər boyu işləndiyindən və bu dilin lüğət tərkibində, istərsə də tarixində məlum fakt olduğundan hər bir müəllif asanlıqla öz soyadının, eləcə də adının türkcə qarşılığını təxəllüs kimi. işlədə bilmişlər. Örnək olaraq 19-cu əsrin ortalarında fəaliyet göstərən yazıçı Dmitriyev Lev Yefgrafoviç öz Lev adının türkcə qarşılığı olan Arslan adını təxəllüs olaraq işlətmişdi [6, I, s.110]. Bunun kimi İ. F. Volkov soyadının tərcüməsi ilə Biryukov (volk "qurd"), dramaturq N. Kvasnikov (kvas "içki") mənasında olan soyadını türkizmlərdən - Rus dilindəki içki adı bildirən sözdən yaranan Bragin (türk sözcüyü "braga" kvas dadında içki deməkdir). Sibir yazıçısı Q.S. Mogilnikov (rusca mogila məzar deməkdir) soyadının türkcə tərcüməsi olan "kurqan" sözündən istifadə edərək Kurqanov təxəllüsü götürmüşdür. Ukrayna ədəbiyyatının klassiklərindən olan O. M. Somov öz soyadını (türkcə: som böyükbaşlı balıq) türkcə, digər balıq adı ilə - karas ilə əvəzləmiş, Karasov olmaqla xüsusi təxəllüs götürmüşdür.

Nəticə. Göründüyü kimi təxəllüslərə maraq və meyllənmənin səbəbləri müxtəlif və ciddi mənalı idi. Rus ədəbiyyatında türk mənşəli təxəllüslərin geniş və davamlı şəkildə işlədilməsi halları, görkəmli rus ziyalılarının – sənət adamlarının türk xalqlarının tarixinə, dilinə və türk sivilizasiyasına böyük marağının olduğunu bəyan etməklə bir sıra böyük şəxsiyyətlərin adlarının, etnik mənşəyinin türklərlə, türk dili ilə bağlı olduğunu danılmaz faktlarla təsdiqləyir. Məqalənin bir əhəmiyyəti də ondadır ki, Şərqi Slavyan dilərindəki türk mənşəli sözlərin həmin dillərdə geniş yayılma arealının olduğunu ortaya çıxarır.

Ədəbiyyat:

1. Баскаков Н.А. Русские фамилии тюркского происхождения, Баку, Язычы, 1992
2. Бурибаева М. Тюркизмы Русском языке. От вариантов к норме, Москва, Наука, 2014
3. Дмитриев Валентин. Придуманные имена, Москва, Современник, 1986
4. Фасмер М. Этимологический словарь русского языка, (в 4-х т.), Москва, Прогресс, 1986-87
5. Кононов А. Изучения тюркских языков в России, Ленинград, Наука,1972
6. Масанов Иван. Словарь псевдонимов русских писателей, ученых, общественных деятелей (в 4-х томах) Москва, Книжная Палата, 1956-60
7. Minaxanım Təkləli. Türkoloji Etüdlər, ADPU-nun nəşri, Bakı, 2022
8. Minaxanım Təkləli. Türk İmzası. Nurlar nəşriyyatı, Bakı, 2006
9. Радлов В.В. Опыт словаря тюркских наречий, т. 1-4; СПб. 1893-1911
10. 10.Суперанская А.В. История некоторых псевдонимов, - Наука и Жизнь, 1994, №3, s.125-131

UOT – 811.11.-112

CÜMLƏ ÜZVÜ OLMAYAN VAHİD CÜMLƏ OLA BİLƏRMİ?!

Sərdar Zeynal
Filologiya elmləri doktoru, professoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı, Azərbaycan
serdarzeynal.53@gmail.com
https://orcid.org/0000-0002-5377-6035

Xülasə

Məqalədə XX əsrin 50-ci illərindən başlayaraq qrammatika dərsliklərinə daxil edilən "Söz-cümlə" və "Üzvlənməyən cümlələr" haqqında danışılmış, dildə tədqiqat obyekti olan bu bölmələrin kitablara və dərsliklərə yanlış olaraq salındığı qeyd edilmişdir. Bu cür nitq vahidlərinin əslində üslubiyyat fənninin tədqiqat obyekti olduğu nümunələrlə əsaslandırılmışdır. Cümlədə bitkinlik, modallıq, predikativlik, intonasiya olmalıdır. Bu əlamətlər yoxdursa, deməli cümlə də yoxdur. İnsan təfəkküründə formalaşan fikir dilində və yazıda sözə çevrilməyincə o cümlə ola bilməz. Dilimizdə söz cümlə adlandırılan vahidlər müəyyən üslubi məqamlarla bağlıdır. Bu sahə isə məntiqin, üslubiyyatın tədqiqat obyekti ola bilər və bu haqda dərsliklərdə danışılmalıdır. Leksik mənası olmayan, hər hansı suala cavab verməyən və ayrılıqda cümlə üzvü kimi çıxış etmək iqtidarında olmayan sözlərin cümlə hesab edilməsi məntiqi baxımdan doğru deyildir. Cümlə ancaq və ancaq cümləni təşkil edən üzvlərdən ibarət olmalıdır. Məqalədə belə qərara gəlinir ki, əgər cümlə üzvlərə ayrılmırsa, deməli burada cümlə üzvü yoxdur. Çünki cümlə adlanan nitq vahidində üzv yoxdursa, onda o nitq vahidini cümlə adlandırmaq olmaz.

Açar sözlər: dərslik, cümlə, qrammatika, söz-cümlə, üzvlənməyən cümlə, cümlə üzvü, sintaksis, morfologiya, sadə cümlə, leksik vahid.

МОЖЕТ ЛИ БЫТЬ ОДНО ПРЕДЛОЖЕНИЕ БЕЗ ЧЛЕНА ПРЕДЛОЖЕНИЯ?!

Сардар Зейнал
Доктор филологических наук, профессор
Азербайджанский Государственный Педагогический Университет
Баку, Азербайджан

Резюме

В статье говорилось о «Слове-предложении» и «Неограниченных предложениях», которые были включены в учебники по грамматике 50-х годов 20 века, и отмечалось, что эти разделы, являющиеся объектом исследования языка, были включены ошибочно. в книгах и учебниках. На примерах обосновывается, что именно такие речевые единицы и являются объектом изучения стилистики. Предложение должно обладать исчерпанностью, модальностью, предикативностью и интонацией. Если знаков нет, то и приговора нет. Оно не может быть предложением до тех пор, пока идея, сформировавшаяся в человеческом мышлении, не преобразуется в слова в языке и письме. В нашем языке единицы, называемые словами и предложениями, связаны с определенными стилистическими моментами. Эта область может быть объектом исследования логики и стиля и должна обсуждаться в учебниках. . Логически некорректно считать слова, которые не имеют лексического значения, не отвечают ни на один вопрос и не способны функционировать в составе предложения отдельно. Предложение должно состоять только из членов, составляющих предложение. В статье делается вывод, что если предложение не разделено на части, то части предложения нет. Потому что если речевая единица, называемая предложением, не имеет члена, то эта речевая единица не может называться предложением.

Ключевые слова: учебник, предложение, грамматика, предложение, нечленное предложение, член предложения, синтаксис, морфология, простое предложение, лексическая единица.

CAN THERE BE A SINGLE SENTENCE WITHOUT A SENTENCE MEMBER?!

Sardar Zeynal
Doctor of philological sciences, professor
Azərbaijan State Pedagogical University
Baku, Azerbaijan

Summary

The article talked about "Word-Sentence" and "Unbounded Sentences", which were included in grammar textbooks from the 50s of the 20th century, and it was noted that these sections, which are the object of research in the language, were wrongly included in books and textbooks.It is justified by examples that such speech units are actually the object of study of stylistics. The sentence should have exhaustion, modality, predicativeness, intonation. If there are no signs, then there is no sentence. It cannot be a sentence until the idea formed in human thinking is transformed into words in language and writing. In our language, the units called words and sentences are related to certain stylistic points. This area can be a research object of logic and style, and it should be discussed in textbooks. It is not logically correct to consider words that have no lexical meaning, do not answer any question, and are not able to function as part of a sentence separately. A sentence should consist only and only of the members that make up the sentence. The article concludes that if the sentence is not divided into parts, then there is no part of the sentence. Because if the speech unit called a sentence does not have a member, then that speech unit cannot be called a sentence.

Key words: textbook, sentence, grammar, sentence, non-member sentence, sentence member, syntax, morphology, simple sentence, lexical unit

Annotasiya. Tədqiqat işində Azərbaycan dilinə aid qrammatika kitablarında söz cümlə adı ilə təqdim edilən dil vahidlərindən bəhs edilmişdir.

Aktuallıq. Leksik mənası olmayan, hər hansı suala cavab verməyən və ayrılıqda cümlə üzvü kimi çıxış etmək iqtidarında olmayan sözlərin cümlə hesab edilməsi məntiqi baxımdan doğru deyildir. 100 ildən çox müddətdə qrammatika kitablarında əks olunmayan, son dövrlərdə dərsliklərə gətirilən bu vahidləri cümlə adlandırmaq düzgün deyil.

Metod. Məqalədə təsviri yöndə araşdırma aparılmış, müasir üsul və metodlardan istifadə olunmuşdur**.**

Giriş. Son dövrlərdə Azərbaycan dilinin qrammatikasına aid nəşr olunan dərsliklərdə "Üzvlənməyən cümlələr" adlı bölmə verilir. İndiyə qədər nəşr olunan dərsliklərdə uzun illər ədat, nida və modal sözlərin sırasına daxil edilən ayrı-ayrı sözlər, yəni leksik vahidlər bugünkü dərsliklədə ayrıca müstəqil cümlə kimi qəbul edilib araşdırılır.

Haqlı yerə oxucularda belə bir sual yaranır: − Morfologiyanın tədqiqat obyekti olub, köməkçi nitq hissələri kimi qəbul edilən (köməkçi nitq hissələrini əsas nitq hissələrindən ayıran əsas xüsusiyyətlər hər kəsə məlumdur) və öz məna və vəzifəsinə görə qrammatikada ədat, nida və modal sözlərin sırasına daxil edilən dil vahidləri necə olur ki, müəyyən bitkin fikri bildirən cümləni əvəz edə bilir?!

Leksik mənası olmayan, hər hansı suala cavab verməyən və ayrılıqda cümlə üzvü kimi çıxış etmək iqtidarında olmayan söz necə olur ki, birdən-birə bir cümələnin yükünü öz üzərinə götürür, onu əvəz edir?!

Təqribən son 100 ildə nəşr olunan dərslik, yaxud elmi əsərlərə nəzər saldıqda bu cür baxışın son dövrlər meydana çıxdığının şahidi oluruq.

Hər bir qrammatik anlayışa baxış dəyişə bilər, lakin bu baxış real faktlara əsaslanmalıdır. Azərbaycan dilinin qrammatikasının bəzi bölmələri ilə bağlı söylənilən fikirlərə diqqət etdikdə

görürük ki, bəzi məqamlarda üslubiyyata aid olan məsələlərlə qrammatikaya aid olan məsələlər qarışıq salınır, onlar obyektiv araşdırılmır.

Azərbaycan dilinin qrammatikasında düzgün yanaşılmadan izah edilən aid anlayışlardan biri də yuxarıda dediyimiz kimi "üzvlənməyən cümlələr" məsələsidir.

Hələ keçən əsrin əvvəllərində nəşr olunan dərsliklərdə cümləyə necə tərif verilir, cümənin tərkibi nədən ibarətdir və əsas xüsusiyyətləri nədir, tam olmasa da, qeyd edilir.

Ə.Babazadənin 1934-cü ildə ibtidai məktəblər üçün Azərnəşr Tədris Pedaqoji şöbəsi tərəfindən nəşr olunan dərsliklərdə cümləyə belə bir tərif verilir: "Söz ilə deyilmiş və ya yazılmış bir fikir cümlə adlanır" [6, səh.4].

Bu tərifdən sonra cümləyə aid olan xüsusiyyətlər çox yığcam şəkildə sadalanaraq yazılır: "Cümlənin axırında səs alçalır, arada bir az dayanmaq lazım gəlir. Belə cümlələrin axırında nöqtə qoyulur" [6, səh.6]. Bu dərslikdə cümlənin intonasiyaya görə üç növünün – sual, nida və nəqli olduğu qeyd olunur.

Ə.Babazadənin müəllifliyi ilə nəşr olunan dərslikdə cümlə, onun xüsusiyyətləri, növləri (intonasiyaya görə - S.Z) haqqında çox yığcam danışılsa da, həmin ildə dosent İ.Həsənov və A.Şərifovun müəllifliyi ilə nəşr olunan "Qramer" (Orta məktəb üçün, ikinci hissə, 1. Fonetika, 2.Sintaksis) dərsliyində "Cümlə" bəhsinə geniş yer verilmiş və əhatəli şəkildə izah edilmişdir.

Bu kitabda cümlənin özü haqqında danışılmasa da, cümlənin intonasiyaya, quruluşa görə növləri geniş şəkildə izah edilir.

Cümlədən danışan müəlliflər cümlənin quruluşca sadə və mürəkkəb olduğunu qeyd edib, sadə cümlənin 9 növünün olduğunu göstərirlər: "Müxtəsər cümlə" (yalnız baş üzvərdən ibarət – S.Z); 2. "Müfəssəl cümlə" (ikinci dərəcəli üzvlər də iştirak edən cümlə); 3. "Sual cümləsi"; 4. "Nida cümləsi"; 5. "Nəqli cümlə"; 6. "Şəxsli cümlə"; 7. "Şəxssiz cümlə"; 8. "Müsbət və mənfi cümlələr" (Fikri təsdiq üçün söylənən cümlə müsbət, inkar üçün söylənən cümlə mənfi cümlə – S. Z.) və 9. "Tam və naqis" cümlələr (Nitqi qısaltmaq üçün müəyyən üzvü buraxılan cümlələr – S. Z.) [6,s.25-26].

Bu cümlə növlərinə diqqət etdikdə yalnız "Tam və naqis" cümlələrin bugünkü dərsliklərə daxil edilən "üzvlənməyən cümlələr"ə uyğunluğu ortaya çıxır. Bu uyğunluq da çox sadədir. Bu cümlələrdə, yəni tam və naqis cümlələrdə əsasən məqsədli şəkildə mübtədanın və ya xəbərin ixtisarından söhbət gedir. Bütün cümlə uzvləri cümlədə öz yerini qoruyub saxlayır.

Sadə cümlənin quruluşu haqqında danışan müəlliflər yazır: "Müxtəsər cümlə yalnız mübtəda və xəbərdən, müfəssəl (yəni baş üzvlərlə yanaşı, 2-ci dərəcəli üzvlər də iştirak edən cümlə – S. Z.) cümlə isə mübtəda və xəbərdən başqa tamamlıq və zərfdən ibarət olur" [Yenə orada, səh. 27] (Bu kitabda bir cümlə üzvü kimi təyinin adı qeyd olunmur – S. Z.).

Kitabda müəlliflər sadə cümlə haqda yazır: "Normal olaraq sadə müfəssəl cümlənin quruluşu belədir: 1) Cümlənin başında mübtəda, 2) sonra zərf, 3) bundan sonra da tamamlıq və axırda da 4) xəbər olur" [6, səh.27].

Dərsliyin 27-ci səhifəsində cümlə üzvlərindən bəhs edən müəlliflər yalnız mübtəda, xəbər, zərflik və tamamlığın adını qeyd etsələr də, dərsliyin 28-ci səhifəsində "Sadə müfəssəl cümlə üzvlərini göstərən sxemdə "ikinci dərəcəli üzvlər"in sırasında təyinin də adını qeyd edirlər.

Bu kitabda da cümlə üzvlərindən bəhs edən mülliflər cümlədə cümlə üzvlərindən heç olmasa birinin və ya bir necəsinin iştirakını vacib sayır.

Azərbaycan Dövlət Universitetinin 1959-cu ildə çap olunan "Müasir Azərbaycan dili" kitabında "söz cümlə", yaxud "üzvlənməyən cümlələr" adlı termin işlədilməyib. Ümumiyyətlə, kitabda bu mövzunun adı belə çəkilməyib. Lakin Azərbaycan SSR Elmlər Akademiyası Nəşriyyatının 1959-cu ildə nəşr etdirdiyi "Azərbaycan dilinin qrammatikası" II hissə, (sintaksis) əsərində söz-cümlə ilə bağlı geniş məlumat verilmişdir. Redaksiya heyətinin imzası ilə giriş əvəzi verilən "Bir neçə söz" adlə məlumat xarakterli mətndə bu haqda yazılır: "Azərbaycan dilinin elmi qrammatikasını yaratmaq dilçiliyimiz qarşısında duran mühim və təxirəsalınmaz vəzifələrdən biridir.

İndyə qədər Azərbaycan dili sintaksisinin bir çox məsələlərindən bəhs olunmamış, bir sıra məsələlər yalnış şərh edilmiş, bəzi mövzular isə düzgün olmayaraq sintaksisə daxil edilmişdir" [2, səh.5]. Girişdə müəlliflər bəzi mövzuların qrammatika kitablarına salınmadığından, bəzi mövzuların

yersiz salındığından şikayətlənirlər. Elə bizim bu gün qrammatika kitablarına salınan "Üzvlənməyən cümlələr" (Söz-cümlələr və vokativ cümlələr) bölməsi kimi.

1959-cu ildə nəşr edilən "Azərbaycan dilinin qrammatikası"nda "Söz-cümlə" adlanan [2, səh. 292-304] bölmədə söz-cümləyə belə bir tərif verilir: "Üzvlərə ayrılmayan, aydınlaşdırıcı sözlərin köməyi ilə genişlənməyən, heç bir daxili üzv əsasında formalaşdırmayaraq, ancaq öz bütöv kütləsi əsasında formalaşan və yalnız bir sözdən və ya bir söz birləşməsndən ibarət olan təktərkibli cümlələrə söz-cümlə deyilir" [2, səh.292].

Bu tərifin tərkibində işlədilən söz və ifadələrin məzmununa fikir verdikdə açıq şəkildə görürük ki, cümlənin cümlə olması üçün əsas sayılan dil vahidləri və xüsusiyyətlərin heç biri bu tərifdə öz əksini tapmamışdır. Məsələn, yazılr: "üzvlərə ayrılmayan". Cümlə ancaq və ancaq cümləni təşkil edən üzvlərdən ibarət olmalıdır, lakin burada "üzvlərə ayrılmayan"dan söhbət gedir.

Əgər cümlə üzvlərə ayrılmırsa, deməli burada cümlə üzvü yoxdur. Cümlə adlanan nitq vahidində üzv yoxdursa, onda o nitq vahidini necə cümlə adlandırmaq olar?!!!

Söz-cümləyə verilən tərifdə öz əksini tapan ifadələrdən biri də "Heç bir daxili üzv əsasında formalaşmayaraq" ifadəsidir. Əgər cümlə heç bir daxili üzv əsasında formalaşmayıbsa, o necə cümlə adlanır?! Xarici üzv olursa, onda cümlənin cümlə olması üçün ortaya çıxan xüsusiyyətlər nəyə gərəkdir?!

1959-cu ildə (Azərbaycan dilinin qrammatikası, II hissə, sintaksis) nəşr olunan kitabda yazılır: "... Öz daxili üzvlərinə əsasən formalaşan və üzlərə ayrıla bilən sadə cümlələrdən fərqli olaraq, onları üzvlərə ayırmaq və beləliklə də, onlarda bu və ya digər baş və ikinci dərəcəli üzvləri axtarmaq mümkün deyildir " [2, səh. 292].

Ortaya belə bir sual çıxır:– Əgər cümlə kimi qəbul etdiyimiz dil vahidində müstəqil mənaya malik olan söz-cümlə üzvü yoxdursa, onu necə cümlə adlandırmaq olar?!!!

Abituriyentlər üçün yazılıb nəşr edilən "Azərbaycan dili" (Bakı, 2010, Azərbaycan Respublikası Təhsil Nazirliyi və Tələbə Qəbulu Üzrə Dövlət Komissiyası tərəfindən təsdiq edilmişdir) kitabında cümlə üzvləri haqqında yazılır: "Müstəqil məna kəsb edən, söz və söz birləşmələri cümlədə digər sözlərlə məna və qrammatik cəhətdən əlaqəyə girib sintaktik vəzifə qazanır, suala cavab verib cümlə üzvü olur" [2, 339]. Daha sonra isə yenə həmin kitabda yazılır: Hər bir sözün cümlə üzvü olması üçün müstəqil leksik mənaya malik olmalı, müəyyən suala cavab verməli və cümlədəki sözlərlə əlaqəyə girməlidir" [2, səh. 340].

Əgər belədirsə, onda nə üçün modal sözlər, ədatlar və digər köməkçi sözlərdən ibarət olan cümlələrin olduğu haqqında geniş şəkildə fikirlər söylənilir?!

Məsələn, "Müasir Azərbaycan dili" [10, səh.159] təsdiq söz-cümlələrlə bağlı yazılır: "Təsdiq söz cümlələr aşağıda göstərilən söz və söz birləşmələri ilə ifadə edilir: əlbəttə ki, sözsüz ki, şübhəsiz ki və s."

Bu dil vahidlərinin cümlə vəzifəsində çıxış etmələrini təsdiqləmək üçün aşağıdakı kimi nümunələr verilir: Məsələn: "Bəhram mənim kimi bir qız sənin kimi bir oğlanı sevməsə, ərə getməz, deyilmi? [Bəhram] Əlbəttə ki, elədir. Fəqət istədiyini də sevə bilərsən. Demək, siz tacir deyilsiniz? Əlbəttə, yox...dedim" [10, səh. 294-300]. Bu cümlələrdən birincisində "əlbəttə ki", ikincisində isə "əlbəttə" ara sözləri söz-cümləyə nümunə göstərilib.

Cümlələrdən də görünür ki, həmin cümlədə işlənən "əlbəttə ki" və "əlbəttə" modal sözləri cümlə kimi yox, cümlədəki fikrə münasibət bildirən ara söz (modal söz) kimi işlənmişdir. Əgər "əlbəttə ki" modal sözü cümləni əvəz edə bilsəydi, onda heç "əlbəttə" sözündən sonra işlənən "elədir" sözünə - xəbərinə - əvəzliklə ifadə olunan xəbərinə ehtiyac duyulmazdı.

Modal sözlərin dildə vəzifəsi hər kəsə məlumdur, cümlələrdə modallıq əsasən feillərlə öz əksini tapır, lakin ismi xəbərli cümlələrdə xəbərlər bu vəzifəni yerinə yetirə bilmədiyindən, cümlələrdə modal sözlərin işlənməsinə ehtiyac duyulur.

Modallıqla bağlı "Müasir Azərbaycan dili" (II cild, morfologiya, "Elm" nəşriyyatı, Bakı, 1980) kitabında yazılır: "Azərbaycan dilindəki feil şəkilləri və onların müxtəlif zaman forması üç modallığın (həqiqi modallıq, zəruriyyət modallığı, ehtimal modallığı) ifadəsinə xidmət edir... Lakin modallıq kateqoriyasını tamamilə feilin şəkilləri ilə bağlamaq doğru deyldir, çünki dilimizdə feili

xəbərli cümlələrlə yanaşı ismi xəbərli cümlələr də vardır. İsmi xəbərli cümlələrddə modallığı ifadə etmək üçün müəyyən vasitələrdən istifadə edilir" [9, səh.461-469].

1959-cu ildə nəşr edilən kitabda verilmiş "Əlbəttə ki, elədir" cümləsindəki "əlbəttə ki" modal sözünün (nitq hissəsinin), morfologiyada (Müasir Azərbaycan dili" (II cild, morfologiya, "Elm" nəşriyyatı, Bakı, 1980) verilən "Əlbəttə ki, baxaram" [9, səh. 466] cümləsində işlənən "əlbəttə ki" sözünün cümlələrdəki vəzifəsində nə fərq görünür?!! Heç nə!

Heç bir məna fərqi ifadə etməyən eyni dil vahidinin müxtəlif bölmələrin tədqiqat obyekti kimi göstərilməsində obyektivliyə daha çox fikir vermək lazımdır. Bəllidir ki, elə leksik vahidlər vardır ki, onlar sintaktik vəzifəsinə görə cümlənin müxtəlif üzvü kimi çıxış edə bilər. Cümlə üzvü kimi çıxış etmək üçün isə sözlər mütləq yuxarıda sadaladığımız xüsusiyyətlərə malik olmalıdır.

Bununla yanaşı, morfologiyada təsdiq ədatlarının sırasına daxil edilən " bəli", "hə" ədatları da sintaksisdə söz-cümlə qəbul edilir.

Məsələn, morfologiyada təsdiq ədatları ilə bağlı yazılır: "Ədatların bir qrupu cümlədə ifadə olunan fikrin təsdiq olunması barədə razılıq mənası yaradır. Təsdiq ədatları bunlardır: bəli, hə, aha, bəli də".

− Bəli, orası elədir, ancaq əvvəl tək idim.

− Hə, qızımı vermişəm, axı bu gecə toy idi [9, səh.458].

Birinci cümlədəki "bəli", ikinci cümlədəki "hə" ədatı təsdiq bildirən ədatlara nümunə göstərilir.

Sintaksisdə isə "bəli" və "yox" sözləri sintaktik vahid kimi söz-cümlələrin sırasına daxil edilir.

"Azərbaycan dilinin qrammatikası" [II hissə, sintaksis, Bakı, 1959] kitabında isə "bəli" və "yox" sözləri ilə bağlı yazılır: "Xüsusi təsdiq söz-cümlələr, qoyulan suala bilavasitə təsdiq cavabı olur. Öz lüğəvi xarakterinə görə bu cümlələr başlıca olaraq, təsdiq bildirən bəli, hə ədatları ilə...ifadə olunur.

− Bəli... Musanı öyrədən də odur... Məni arxadan vuran da o oldu.

− Deməli, türkün sözü, o, böyüklərdən olubdur? [Sevil] Hə... lap böyüklərdən, o ki, köhnə padşah xəzinəsi yox idi, paya-payda hamısı ona çatıbdır" [10, səh.294].

Sintaksisdə və morfologiyada nümunə kimi verilən bu cümlələrdə işlənən "bəli" və "hə" sözləri təsdiq bildirən ədat kimi cümlələrdə çıxış etmişdir.

Əgər sözün leksik mənası, cümlə üzvü olmaq hüququ, suala cavab vermə imkanı yoxdursa, onu cümlə kimi götürmək bütün qrammatik qanunların pozulmasına gətirib çıxaracaqdır.

Son dövrlər bədən dili kimi təqdim edilən əl-qol, baş hərəkəti, üz cizgiləri vasitəsilə də insan başqalarının söylədiyi fikirlərə öz münasibətini bildirir. O da insan fikrinin ifadəsinin başqa bir forması kimi ortaya çıxır. Bu cür ifadə edilən fikri cümlə adlandırmaq olarmı?

Müasir dövrdə nəşr olunan qrammatika dərsliklərinə "Söz-cümlə" mətni ilə yanaşı bir "Üzvlənməyən cümlələr" bölməsi də daxil edilmişdir.

Əvvəldə yazdığımız kimi, əgər cümlə üzvlənmirsə, o necə, hansı əsasa görə cümlə adlandırılır, yox əgər cümlədirsə, onda bu cümlələrin üzvləri hansıdır?!!

Haqqında danışdığımız (1959) kitaba "söz-cümlə" bölməsindən sonra "Qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər və söz birləşmələri" [10, səh.307] adlı bir mətn də daxil edilmişdir. Bu mətndə qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərlə bağlı yazılır "Cümləni təşkil edən baş və ikinci dərəcəli üzvlərdən başqa, cümlədə bir qisim sözlər və söz birləşmələri də işlədilir ki, bunlar qrammatik cəhətdən cümlənin heç bir üzvü ilə bağlı olmadığı kimi, cümlə üzvü də ola bilmir. Yəni belə sözlər cümlə üzvləri ilə uzlaşma, idarə və yanaşma cəhətdən əlaqədə olmur" [10,, səh.307].

Mətnin sonunda verilən 653-cü paraqrafda müəllif qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlər qrupunu ardıcıl olaraq qeyd edir və sonuncu (b) bəndində yazır: "Cümlənin əvvəlində işlədilən bəli, xeyr, yox, yaxşı sözləri" qrammatik cəhətdən cümlə üzvləri ilə bağlı olmayan sözlərdir".

Əgər belədirsə, "cümlənin əvvəlində işlənən" qeyd edilən sözlər cümlə üzvləri ilə bağlı deyilsə, onda "söz-cümlə" [səh.292] mövzusunda müəlliflər "Bəli, Musanı da öyrədən odur" [10,

səh.294] cümləsində bəli, "Yaxşı, qızım, qoy sən deyən olsun" [10,səh.295] cümləsində yaxşı, "Bəli, Azər, belə yoldaş idi" [10, səh.295] cümləsində bəli, "Yox, mən səndən ayrılmaram" [10, səh.297] cümləsində yox, "Xeyr, o Vaqifdir, eşqə gələrək, Bəzən qamçılıyır zəmanəsini" [10, səh.297] cümləsində isə xeyr sözünü nə üçün söz-cümlə kimi göstərir.

Bu yanaşma "söz-cümlə" mövzusuna dilçilərin 60 il bundan əvvəlki yanaşması olsa da, bu yanaşma dərsliklərdə bu gün də öz əksini tapmaqdadır. Hələ bir qədər də irəli gedərək alimlərin bir qimi bu mövzunu genişləndirərək kitablara "Söz-cümlə" mövzusu ilə yanaşı, bir "Üzvlənməyən cümlələr" mövzusu da daxil etmişlər.

Cümlədən bəhs edən alimlər yuxarıda da qeyd etdiyimiz kimi cümlədə (yəni söz və söz birləşmələrinin bitkin bir məna bildirib nitq vahidinə çevrilməsi üçün) bir sıra əlamətlər – bitkinlik, modallıq, predikativlik, intonasiya və s. öz əksini tapmalı olduğunu göstərmişdir. Bu əlamətlər yoxdursa, deməli cümlənin özü yoxdur. Digər tərəfdən, əgər sözün lüğəvi mənası yoxdursa, o suala cavab vermir və hər hansı bir cümlə üzvünə aid deyilsə, onu necə cümlə üzvü adlandırmaq olar?!

Nəticə. Dil dəqiqliyi, riyazi dəqiqliyi sevir. Ya var, ya yox. İnsan təfəkküründə formalaşan fikir dilində və yazıda sözə çevrilməyincə o cümlə ola bilməz.

Bu cür cümlələrin, yəni bir sözlə fikrin təsdiq və ya inkar edilməsi müəyyən üslubi məqamlarla bağlıdır. Bu sahə isə məntiqin, üslubiyyatın tədqiqat obyekti ola bilər və bu haqda dərsliklərdə danışılmalıdır.

Nəyisə təsəvvürdə canlandırıb, onu adlandırmaq, təhlil etmək triqonometriyanın əsas vəzifəsidir. Orada da bir hissəyə əsaslanıb bütöv haqqında fikir söyləmək qeyri-mümkündür. Triqonometriyanın əsas vəzifəsi isə üçbucağın verilmiş üç parametri (yan tərəfi, bucağı, meridian) və s. əsasında yerdə qalanları da təyin etməkdir.

Bu cür dəqiq elmdə bir element əsasında müsbət nəticə əldə edilə bilmədiyi halda, Azərbaycan dilində lüğəvi mənası olmayan, suala cavab verməyən, cümlə üzvü vəzifəsində işlənmək hüququ olmayan bir söz, bütün fikir bildirən bir cümləni necə əvəz edə bilər.

ƏDƏBİYYAT

1. Ə.Abbasov. Azərbaycan dilinin qrammatikası. I hissə, yeddillik və orta məktəblərin 5-6-cı sinifləri üçün. Bakı, Azərnəşr, 1953.
2. Azərbaycan dilinin qrammatikası. II hissə, sintaksis, Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, Bakı, 1959
3. Azərbaycan dili. Qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün vəsait. Bakı, 2010
4. Dilçilik məcmuəsi. Nizami adına Ədəbiyyat və Dil İnstitutunun əsərləri. X cild, Azərbaycan SSR E A nəşriyyatı, Bakı, 1957
5. Dosent İ.Həsənov və A.Şərifov. Qramer. Orta məktəb üçün üçüncü hissə. 1. Fonetika, 2. Sintaksis. Azərnəşr Tədris – Pedaqoji şöbəsi, Bakı, 1934
6. Ə.Babazadə. Türk dili. İbtidai məktəb üçün (qramer və yazı qaydaları). Birinci hissə. Azərnəşr Tədris – Pedaqoji şöbəsi, Bakı, 1934
7. Q.Kazımov. Müasir Azərbaycan dili. Sintaksis. Ali məktəb üçün dəsrlik. "Elm və təhsil" Bakı, 2010
8. M.A.Şirəliyev və M. Hüseynzadə. Müasir Azərbaycan dilinin qrammatikası. Yeddiillik və orta məktəblərin 6-7-ci sinifləri üçün, Bakı, Azərnəşr, 1957
9. Müasir Azərbaycan dili. IV cild, sintaksis. "Elm" nəşriyyatı, Bakı, 1980
10. Müasir Azərbaycan dili. Sintaksis. ADU nəşriyyatı, Bakı, 1959
11. Q.Kazımov. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, 2014

UOT -811.512.162

AZƏRBAYCAN_DİLİ: TARİXİ KÖKLƏRİ, İNKİŞAF YOLU

Yeganə Qəhrəmanova
Filologiya üzrə fəlsəfə doktoru, dosenti
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı, Azərbaycan
yegane.qehremanova.1976@mail.ru
https://orcid.org/0000-0003-3730-7674

Xülasə

Son dövrlərə qədər aparılan tədqiqat və araşdırmaların böyük əksəriyyətində türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin tarixi düzgün araşdırılmamış, tarixi faktlar əksər hallarda məqsədli şəkildə, bəzən də bilməyərəkdən dolaşdırılmış, eləcə də saxtalaşdırılmışdır. Belə ki, türklərin ilk vətəni Orta Asiya hesab edilməklə onların Azərbaycandan başlayan və Orta Asiyadan çox-çox qədim dövrlərə gedib çıxan tarixini məqsədli şəkildə gizlətmiş, Azərbaycanın dünya türklərinin ilk ana vətəni olma faktını ört-basdır etmişlər. Son dövrlərə qədər türklərin ana vətəni Altayla bağlanmış, onların əslində ilk məskəni olan Azərbaycanda yerli etnos olması faktına toxunulmamış, əksinə türklər Azərbaycanda gəlmə, türkləşmiş xalq hesab olunaraq türklərin tarixinin guya hunlardan başladığı göstərilmişdir, Belə bir yanlış fikir irəli atılmışdır ki, hunlara qədər türklər "Ural-Altay" birliyinə daxil idilər. Halbuki qədim Altay mərhələsi ilə Hun mərhələsi arasında minillikləri əhatə edən çox böyük bir dövr durur ki, bu dövrün üzərindən adlayıb keçmək qeyri-mümkündür. Tədqiqatçılar şumer dili ilə müasir Azərbaycan dili arasında yüzlərlə ortaq sözlər müəyyənləşdirmişlər. Faktlar göstərir ki, burada hansısa təsadüfdən və ya tipoloji uyğunluqdan söhbət gedə bilməz. Həmin dil ünsürləri birbaşa Şumer-Azərbaycan dili arasında mənşə-kök bağlılığının ifadəsidir. Belə ortaq sözlər müasir dilimizə, sözsüz ki, tarixi abidələrimizdə qorunaraq gəlmişdir. Bu baxımdan Ana abidəmiz sayılan "Kitabi-Dədə Qorqud"da kifayət qədər Şumer-Azərbaycan sözlərinin işlənməsi müşahidə olunur.

Açar sözlər: türk, tarix, dil, milli, şumer

AZERBAİJAN LANGUAGE: HİSTORİCAL ROOTS, PATH OF DEVELOPMENT

Yegana Kahramanova
Doktor of philosophy on philology, ass.professor
Azerbaijan State Pedagogical University
Baku, Azerbaijan

Summary

In the vast majority of researches and researches conducted until recent times, the history of the Turkic peoples, including the Azerbaijani Turks, has not been properly researched, and historical facts have been purposefully, sometimes unknowingly, twisted and falsified in most cases. Thus, by considering Central Asia as the first homeland of the Turks, they purposefully hid their history, which began in Azerbaijan and went back to Central Asia to very ancient times, and covered up the fact that Azerbaijan was the first motherland of the world's Turks. Until recent times, the motherland of the Turks was connected to Altay, and the fact that they were a local ethnos in Azerbaijan, which was actually their first settlement, was not touched upon, on the contrary, the Turks were considered to be a Turkic people who did not come to Azerbaijan, and it was shown that the history of the Turks supposedly began with the Huns. -Altay" union. However, between the ancient Altai stage and the Hun stage, there is a huge period covering millennia, which is impossible to ignore.

Researchers have identified hundreds of common words between the Sumerian language and the modern Azerbaijani language. The facts show that there can be no question of some coincidence or typological compatibility here. Those language elements are a direct expression of the origin-root connection between the Sumerian-Azerbaijani language. Such common words came to our modern language, without a doubt, preserved in our historical monuments. From this point of view, in "Kitabi-Dada Gorgud", which is considered as our mother monument, quite a lot of Sumerian-Azerbaijani words are used.

Key words: Turkish, history, language, nationality, shumer

АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК: ИСТОРИЧЕСКИЕ КОРНИ, ПУТИ РАЗВИТИЯ

Yeqana Кахраманова
Доктор философии по филологии, доцент
Азербайджанский Государственный Педагогический Университет
Баку, Азербайджан

Резюме

В подавляющем большинстве исследований и изысканий, проведенных до недавнего времени, история тюркских народов, в том числе и азербайджанских тюрков, не была должным образом исследована, а исторические факты в большинстве случаев целенаправленно, иногда по незнанию, искажались и фальсифицировались. Таким образом, считая Среднюю Азию первой родиной тюрков, они целенаправленно скрывали свою историю, начавшуюся в Азербайджане и уходящую в Среднюю Азию в очень древние времена, и умалчивали о том, что Азербайджан был первой родиной тюрков мира. . До недавнего времени родина тюрков была связана с Алтаем, а то, что они были местным этносом в Азербайджане, фактически являющемся их первым поселением, не затрагивалось, наоборот, тюрки считались тюрками. народа, не пришедшего в Азербайджан, и показано, что история тюрков якобы началась с гунно-алтайского союза. Однако между древнеалтайским этапом и этапом гуннов лежит огромный период, охватывающий тысячелетия, игнорировать который невозможно.

Исследователи выявили сотни общих слов между шумерским языком и современным азербайджанским языком. Факты показывают, что о каком-то совпадении или типологической совместимости здесь не может быть и речи. Эти языковые элементы являются прямым выражением первично-коренной связи шумеро-азербайджанского языка. Такие общеупотребительные слова пришли в наш современный язык, несомненно, сохранившись в наших исторических памятниках. С этой точки зрения в «Китаби-Даде Горгуд», считающемся нашим материнским памятником, использовано довольно много шумеро-азербайджанских слов.

Ключевые слова: тюркский, история, язык, национальность, шумеры

Annotasiya. Hazırda yer kürəsinin müxtəlif regionlarında yaşayan 70 milyona qədər soydaşımıza ana dili və ünsiyyət vasitəsi kimi xidmət edən Azərbaycan dilinin sabit lüğət tərkibinə və qrammatik quruluşa malik olması bu dilin qədimliyinin, min illərin arxasından gələn sorağının göstəricisidir. Türk dilləri ailəsində tarixən öz inkişaf tempinə, öz qədimliyini və milli köklərini qoruyub saxlamaq imkanlarına görə digər dillərdən fərqlənən Azərbaycan dilinin bu dillər içərisində yerini və ifadə imkanlarının genişliyini tam və hərtərəfli şəkildə izah edib aydınlaşdırmaq üçün dilimizin ilkin köklərinin haradan və hansı dövrdən gəldiyinə diqqət yetirmək vacibdir.

Aktuallıq. Azərbaycan dili dünyanın ən qədim dillərindən biri, türk dillərinin ən ilkini olsa da, təəssüf ki, uzun illər məqsədli şəkildə dilimizin tarixinə aid faktlar saxtalaşdırılmış, Azərbaycanın ilk yerli sakinlərinin İran və Qafqazdilli olması, türklərin ilk ana vətəninin Orta Asiya olması haqqında cəfəng fikirlər irəli sürülmüşdür. Halbuki dünyanın və ölkəmizin mütərəqqi alimlərinin ortaya qoyduğu kimi, Azərbaycanın ən qədim sakinləri türk tayfaları olmuş, türklər tarix səhnəsində məhz Azərbaycanda – Ön Asiyada gəlmişlər. Ona görə də bu tarixi həqiqətləri daha geniş şəkildə araşdırmaq və dərk etmək üçün bir sıra qaranlıq məqamlara aydınlıq gətirmək lazımdır.

Metod. Məqalədə tarixi-müqayisəli, təsviri və qarşılaşdırma metodlarından istifadə edilmişdir.

Giriş. Tədqiqatçıların da dediyi kimi, "dilinin materiyası və forması o zaman başa düşülə bilər ki, onun doğuluşu və tədricən inlişafı izlənilsin" [18, s.4].

Son dövrlərə qədər aparılan araşdırmaların əksəriyyətində türk dilli xalqların, o cümlədən Azərbaycan türklərinin tarixi düzgün araşdırılmamış, bir çox faktlar əksər hallarda məqsədli, bəzən də bilməyərəkdən dolaşdırılmış, hətta saxtalaşdırılmışdır. Yəni türklərin ilk ana vətəni Orta Asiya hesab edilməklə onların Azərbaycandan başlayan və Orta Asiyadan çox-çox qədim dövrlərə gedib çıxan tarixi məqsədli şəkildə gizlədilmiş, Azərbaycanın dünya türklərinin ilk ana vətəni olma faktı ört-basdır edilmişdir. Son dövrlərə qədər türklərin ana vətəni Altayla bağlanmış, onların əslində ilk məskəninin Azərbaycan olması,Azərbaycanın yerli etnosunun, əsasən, türklərdən ibarət olması faktına toxunulmamış, əksinə türklər Azərbaycanda gəlmə, türkləşmiş xalq hesab olunaraq belə göstərilmişdir ki, "guya türklərin tarixi yalnız Hun dövründən başlanır və buna qədər onlar mücərrəd bir birliyə - "Ural-Altay" birliyinə daxil idilər. Halbuki qədim Altay mərhələsi ilə Hun mərhələsi arasında minilliklərə bərabər çox böyük bir dövr durur ki, birdən-birə bu dövrün üzərindən adlayıb keçmək qeyri-mümkündür" [2, s.4]. Unutmaq olmaz ki, "Azərbaycan Şərq aləmində cahanşümul bir ölkə kimi mənəviyyatın, mədəniyyətin təməl daşını əks etdirən bir məmləkətdir. Bir çox zaman Aran kimi adlanmış bu torpaq dünyaya Zərdüştü və "Avesta" kitabını bəxş etmişdir. Bu kitab Şərqin mənəvi dünyasının əsaslarının qorunmasında başlıca rol oynamışdır" [10, s.51]. Sözsüz ki, Azərbaycan ərazisində Zərdüştə qədərki dövrdə də zəngin mədəniyyət, həyat tərzi, fəlsəfi və əxlaqi baxışlar mövcud olmuşdur. "Zərdüştə qədər mövcud olanlarınn nüvəsində yenə də türk təzahürünün dominant rolu yüksək dərəcəsi və səviyyəsi ilə seçilmişdir. Lakin Azərbaycana dair tarixi materialların müxtəlif səbəblərlə bağlı məhv edilməsi ölkəmiz haqqında ətraflı, obyektiv bilgiləri və məlumatları yoxa çıxarmışdır" [10, s.52].

Q.Kazımov məsələyə həssas yanaşaraq yazır ki, "Tarixçilərin tədqiq və araşdırmaları göstərir ki, tarixin saxtalaşdırılması prosesi təkcə Azərbaycan türklərinə aid deyildir; başqırd, qazax, qırğız, özbək, türkmən və başqa türk xalqlarının da mənşəyi dolaşdırılmışdır. Türk xalqlarının tarixini uzağı e.ə. III əsrdən – Mərkəzi Asiyada Şərqi Hun çarlığının tarixindən başlamağı lazım bilmişlər" [12, s.260]. Belə bir yanaşmanı rus şovinizminin xüsusi siyasəti hesab edən Q.Qeybullayev yazır ki, "Türk xalqlarının qədim tarixi haqqında saxta fikirlər rus tədqiqatçılarının nəzarəti altında başqırd, qazax, özbək, qırğız, türkmən və b. xalqların tarix kitablarına da yol tapmışdır [16, s.35]. Belə ki, qədim şumerləri, kuti, lullubi, maday, manna, kas, kaspi, işquz, alban, sak, massaget, kəmər, quqar, avar, sarmat və digər bu kimi türk mənşəli tayfaları İran və ya Qafqazmənşəli, Qazaxıstan və Orta Asiyanın hazırkı türk xalqlarını iranmənşəli türkləşmiş xalq hesab etməklə "tarix elmi eybəcər hala salınmış, türklərin bəşər tarixindəki rolu heçə endirilmişdir" [16, s. 35-36]. Halbuki adlarını çəkdiyimiz tayfalar da, Orta Asiya və Qazaxıstanın bugünkü türk xalqları da sonradan türkləşməmiş, doğuluşdan türk olmuşlar. Məsələni bir qədər də konkretləşdirən F.Ağasıoğlu tarixi faktların bu cür dəyişdirilməsi və saxtalaşdırılması nəticəsində türklərin ilk vətəni olan Azərbaycana, Azərbaycan xalqına və dilinə olan münasibətin daha acınaqlı olduğunu qeyd edərək yazır ki, "Türk etnosunun formalaşdığı orta regionun tarixi bura gəlmə xalqların tarixinə əsasən yazıldığı üçün proto-azər və azər tarixi üzərinə qara pərdə çəkilmiş, bu regionun ortasında olan Azərbaycanın etnik tarixi öyrənilməmişdir. Bunun səbəblərindən biri türklərin Atayurdunu Orta Asiyadan batıda deyil, doğuda axtaran qondarma "Altay" nəzəriyyəsi olmuşdur. Bir başqa səbəb isə Ön Asiyanın qədim etnik tarixinə batılı müəlliflərin qərəzli baxışı və türkoloqların bu məsələyə etinasız münasibətidir. Ona görə də Doğu mədəniyyətinin hər iki ucda doğu və batı qanadlarını formalaşdıran etnoslardan fərqli olaraq, orta qanadı yaradan etnoslar sırasında türklərin qədim dünya sivilizasiyasına verdiyi kultur dəyərləri hələ obyektiv qiymətini almamışdır" [1, s.6]. Azərbaycanın arxeoloji kulturunun Avropa, Misir, Monqolustan kulturundan qədim olduğu kimi, Azərbaycan-türk dilinin tarixinin də asur, monqol dillərindən qədim olduğunu söyləyən müəllif göstərir ki, "Başqa dil ailələrindən fərqli olaraq, türk dil ailəsində protodil çağı inkişaf və təkmilləşmə dövrünü tam başa vurandan, dilin quruluşunda yaranan mükəmməl mexanizm tam sistemə oturandan sonra ilk böyük miqrasiyalarla ayrı-ayrı bölgələrə dağılmışlar... Azərbaycan arxeoloji kulturu çiçəklənəndə Avropa hələ buzlaşma dövrünü yaşayırdı" [1, s.19].

Beləliklə, son dövrlərin tədqiqatları sübut etdi ki, Sovet dövrünün Azərbaycan ərazisinin ilk sakinlərinin İrandilli və Qafqazdilli xalqlar olması, türk dilli qəbilə və tayfaların bura sonradan gəlməsi haqqında əsas uydurma elmi tezisi başdan-başa yalandır, Azərbaycan türklərin ana vətəni, onların doğulub tarix səhnəsinə gəldiyi ilk məkandır, başqa sözlə, Azərbaycanın ilkin yerli sakinləri İran və Qafqazdilli xalqlar deyil, məhz türk tayfaları, türk soylarıdır. F.Ağasıoğlu haqlı olaraq yazır ki, "Arxeoloji, mifoloji, etnoqrafik, onomastik, yazılı qaynaqlara görə, son beş minildə Azərbaycana və sərhəd bölgələrə, qonşu ölkələrə gəlib yerləşən və ya gəlib buradan keçən ...sami, het, hay, hurri-urartu, iran, qafqaz və monqol dilli xalqların regiona gəlmə tarixi bəllidir. Ancaq qonşu bölgələrdə elam, hat və qafqazdilli boylar, Doğu Anadolu və Azərbaycanda isə prototürklər yerli xalq olduğundan onların bura gəlmə tarixi yoxdur. Ümumtürk və azər tarixinə bu yöndən yanaşanda indiyə qədər regionun etnik tarixinə aid yazılmış əsərlərdə yanlış şərhlərin, deyilmiş fikirlərdəki ziddiyyətlərin səbəbi aydın görünür" [1, s. 5]. Vaxtilə akademik Z.Bünyadov da Azərbaycanda türkləşmə məsələsinin doğru olmadığını, problemin ciddiliyini və sovet şovinist yanaşmasının yanlışlığını dərk edərək yazmışdı ki, "Azərbaycan əhalisinin türkləşməsi prosesinin başlanğıcının aydınlaşdırılması çox mürəkkəbdir və bu məsələ indiyədək həll edilməmişdir. Bəzi tədqiqatçıların etdiyi kimi, türkləşmənin XI-XII əsrlərdə baş verdiyini qəbul etmək səhv olardı. Türkləri Azərbaycan ərazisinə kənardan gəlmiş bir ünsür hesab etmək də səhvdir" [4, s.171].

Sözsüz ki, Azərbaycanın etnik tarixinin düzgün araşdırılmaması ümumən türk etnosunun qədim tarixinin və dilinin öyrənilməsi, eləcə də dilimizin qohum dillər arasında mövqeyinin müəyyənləşdirilməsi məsələsində də dərin problemlərin kök salmasına səbəb olmuşdur. Azərbaycan ərazisində aşkarlanan arxeoloji, antropoloji, eləcə də dil faktları bir daha sübut edir ki, bu ərazinin etnogenetik tərkibi türkdilli etnoslar əsasında meydana çıxmış, Şərqə türk mədəniyyətini buradan aparan türk boyları zaman-zaman geriyə qayıdaraq Azərbaycandakı türk dövlətlərinin, mədəniyyət və etnogenezin formalaşmasında danılmaz rola malik olmuşlar. Azərbaycan dilinin geniş bir ərazidə əhalinin ünsiyyət vasitəsinə çevrilməsi nəticəsində bəzi yerli və gəlmə dillərin assimilyasiyaya uğradığını, lakin tamamilə yox olub getmədiyini, qalib dildə öz izlərini qoruyub saxladığını deyən E.Əzizov haqlı olaraq yazır ki, "Əgər, doğrudan da, azərbaycanlılar (Azərbaycan türkləri) mənşəcə qeyri-türk olsa idi, Azərbaycan dili yalnız gəlmə türk tayfalarının dili hesabına formalaşsa idi, onda bu dildə assimilyasiyaya uğramış yerli dillərin izləri özünü göstərməli idi. Bəlli olduğu kimi, müasir Azərbaycan dilinin nə fonetik sistemində, nə də qrammatik quruluşunda indiyədək yad izə təsadüf olunmamış" [5, s.15], əksinə dilimiz bütün dövrlərdə güclü nüfusedici təsirə malik olmuşdur. Özünün "Azəri" adlı əsərində dilimizin qədim tarixini araşdıran M.F.Köprülünün belə bir qənaətə gəlməsi təsadüfi deyil ki, "bu söz (azəri –Y.Q.) yalnız bugünkü İran Azərbaycanı və Cənubi Qafqaz türklərinin danışdıqları türk dil şöbəsinə və ya şöbələrinə deyil, daha geniş olaraq, ümumiyyətlə, İran, Qafqaz, hətta Şərqi Anadolu və İraq türkləri arasında uzun əsrlərdən bəri zəngin ədəbiyyat vücuda gətirən "ədəbi ləhcəyə" aid edilməlidir" [13, s.22].

Təbii ki, belə geniş təsir dairəsinə malik olan güclü dil birdən-birə formalaşa bilməzdi. Bu dilin tarixin ən qədim dövrlərindən, ən ağır sınaqlarından çıxıb günümüzə gələn, hər cür yad təsirə dözümlülük nümayiş etdirən ən qədim dillərdən olması fikri bir zamanlar sadəcə mülahizə kimi qəbul edilirdisə, artıq sübut olunmuş elmi fakt hesab olunur. Çünki yuxarıda da qeyd etdiyimiz kimi, "Dünya elminin arxalandığı arxeoloji materiallar göstərdi ki, türklərin ilkin vətəni Sayan-altay əraziləri deyil, Ön Asiya – Azərbaycan olmuş, ilkin miqrasiyalar məhz buradan başlamış, türklər buradan Mərkəzi Asiyaya köç etmiş, min illərlə o yerlərdə artıb-çoxalaraq yeni əlverişli yaşayış sahələri axtarışı ilə yenidən geriyə - öz ilkin yurdlarına dönmüşlər. Ulu dil Ön Asiya və Aralıq dənizi həndəvərində yaranmış və burada protodillərə parçalanmışdır" [12, s.296]. Pratürkün Ön Asiyada təşəkkül tapdığını, dialekt parçalanmaları ilə mezolitdən başlayaraq bizim dəqiq bilmədiyimiz dövrlərdə şərqə, qərbə və şimala buradan hərəkət etdiyini göstərən Q.Kazımov yazır ki, "yerli tayfaların böyük bir qismi və ya tayfa bölümləri öz ilkin vətənini, doğma yurdlarını – Azərbaycan, İran, İraq ərazilərini tərk etməmişlər. Bu ərazilər türk tayfalarının daimi məskəni olmuş, onlar bu ərazilərə sonralar gələn irandillilər, qafqazdillilər və samilərlə qonşuluqda yaşamışlar" [12, s.296]. Alim mühafizəkar tarixçilərin guya hansı dildə danışdığı bilinməyən qədim aborigen Azərbaycan etnoslarının iki dəfə - əvvəlcə Mada imperiyası dövründə, sonra isə XI – XII

əsrlərdə öz etnik simasını dəyişdirməsi, birinci dövrdə iranlılaşması, ikinci dövrdə isə türkləşməsi haqqında cəfəng və tamamilə uydurma fikirlərini təkzib edərək yazır ki, "...tarixə yeni gözlə baxan alimlərin tədqiq və araşdırmaları, eyni zamanda külli miqdarda dil faktları göstərir ki, qədim Azərbaycanın aborigen etnosları türklərdən ibarət olmuş və heç vaxt öz etnik simalarını dəyişməmiş, heç vaxt iranlılaşmaya məruz qalmamışdır. Əksinə, yeni gələn türk tayfaları daim onlara qol-qanad vermiş, onları gücləndirmişdir" [12, s.297]. Ona görə də Azərbaycan tarixçiliyində türklərin Azərbaycana gəlmə olması haqqında son dövrlərə qədər kök salmış konsepsiya artıq alt-üst edilmiş, demək olar ki, əksər türkdilli xalqlara aid edilmiş "türkləşmiş xalq" anlayışının yanlış olduğu sübuta yetirilmişdir. "İlk dəfə bu konsepsiyaya qarşı dövlət səviyyəsində akademik-katib M.Cəfərovun rəhbərliyi altında Azərbaycan Elmlər Akademiyasında dilçi-tarixçi alimlərin birgə keçirdiyi elmi-nəzəri müşavirədə (1984) kəskin münasibət bildirilərək, mövcud qüsurlu konsepsiyanın islah edilməsi təklif olunmuş, Azərbaycanda yerli və bura qayıdan türk boylarının qovuşması ilə m.ö.I minilliyin ortalarında azər-türk dilinin formalaşması konsepsiyası irəli sürülmüşdür. Bu haqda informasiyanın dövlət mətbuatında dərc olunması azər türklərini aborigen sayan, bu sahədə dəyərli əsərlər yazan alimlərdə daha dərin axtarışlara baş vurma ovqatını artırmış, ayrı-ayrı elm və tədris ocaqlarında etnogenezə dair elmi seminarlar keçirilmişdir" [1, s.7-8]. Həmin dövrdən etibarən problemin həlli istiqamətində ciddi araşdırmalara başlanmış, dilçi və tarixçi alimlərin birgə səyi nəticəsində sübut olunmuşdur ki, "Azərbaycan dili nə gəlmə, nə də öz kökləri etibarilə yad mənşəli olmayıb yarandığı zamandan günümüzədək türksistemli dil kimi Azərbaycan ərazisində məskun olmuş, əcdadlarımızdan mənəvi sərvət kimi bizə miras qalmışdır" [5, s.14]. Bu dildə tarix boyu zəngin maddi-mənəvi nümunələr yaranmış, Azərbaycan ən qədim dövrlərdən yaradıcı insanların məskəni olmuşdur. Məsələ ilə əlaqədar T.Hacıyev [4], Y.Yusifov [22], Q.Qeybullayev [16], A.Məmmədov [17], S.Qaşqay [15], E.Əlibəyzadə [3], Q.Kazımov [13], M. İsmayıl [11], V.Həbiboğlu [7], Nicat Ə. [19], Z.Həsənov [14], Ə.Fərzəli [6], F.Ağasıoğlu [1] və b. əsərlərində geniş məlumat vardır. Ümummilli lider H.Əliyevin 18 iyun 2001-ci il tarixli fərmanında deyildiyi kimi, "Tarixin müxtəlif mərhələlərində dilimizə qarşı edilmiş haqsızlıqların, təzyiq və təhriflərin aradan qaldırılması üçün hazırda ölkəmizdə çox əlverişli şərait mövcuddur". Yaranmış şəraitdən istifadə edərək indiyə qədər dilçiliyimizdə kök salmış bir sıra yanlış və təhrif olunmuş məsələlərin düzgün şəkildə araşdırılması, Azərbaycan dilinin mənşəyi, eləcə də türk dilləri içərisində rolu və mövqeyi məsələsinin aydınlaşdırılması kimi əhəmiyyətli mövzular isə hər birimizdən gərgin əmək və ciddi səy tələb edir.

Aparılan araşdırmalar arasında diqqət çəkən məqamlardan biri də dünyanın ilk insanı hesab edilən Şumerlərin dili ilə Azərbaycan dilinin əlaqəsi məsələsidir. Son dövrlərin tədqiqatları nəticəsində Şumer dilinin ən qədim türk dili kimi Azərbaycan dili ilə kök bağlılığı, şumerlərin qədim türklər – azərlər (aserlər) olduğu təsdiq olunmuş, "Avesta", "Kitabi-Dədə Qorqud" kimi qədim və əzəmətli abidələrə sahib olan, qədim Od və Od-maq sivilizasiyasına əsaslanan Azərbaycan dili və onun mənşəyi haqqında sovet dövründə uydurulmuş bir sıra fərziyyələr xarici və milli alimlərin səyi nəticəsində rədd edilmişdir. Şumer yazılarının türklərlə bağlılığını inkar etməyə çalışanlar dünyanın ilk sakinləri olan şumer dilinin guya heç bir müasir xalqla bağlı olmadığını iddia etməyə cəhd göstərsələr də, S.N.Kramer, Z.Kasidovski, M.Belitski, T.Heyerdal, Q.Vinkler, E.Reklü, V.Bulli, O.Süleymenov, A.Məmmədov, T.Hacıyev, T.Əhmədov, Ə.Nicat, E.Əlibəyzadə, A.Axundov, Q.Kazımov, F.Cəlilov, K.V.Nərimanoğlu, T.V.Nüvədili, V.Həbiboğlu, Q.Məşədiyev, İ.Vəliyev, N.Cəfərov kimi çoxsaylı xarici və yerli araşdırmaçılar öz tədqiqatları ilə Şumer dilinin ən qədim türk dili (prototürk) - Azərbaycan dili olduğunu açıq-aydın sübut etmişlər. Bu araşdırmalarda ən azı 6000-7000 il yaşı olan Şumer yazılarının da bilavasitə Azərbaycan dili və qədim Azərbaycan yazısı olması haqqında fikirlər öz təsdiqini tapdı. Aparılan araşdırmalar nəticəsində aydın oldu ki, Şumer dilinin sözləri çağdaş türk dilləri arasında ən çox Azərbaycan dilinin sözləri ilə səsləşir və qədim Şumerlər ərazi baxımdan Azərbaycanla eyni məkanda məskunlaşmışlar. Tarixdə ilk dəfə Şumer sözlərini oxuyan Amerikada yaşayan Azərbaycan alimi Tariyel Vəli Nüvədili "Əcdad" adlı kitabında Şumer-Azərbaycan dilinin müasir Azərbaycan dilinin fərdi, qrammatik üslubuna tam uyğun gəldiyini, Şumer-Azərbaycan təfəkküründün məhsulu olan oxşəkilli yazının Babilistan, İran, Hindistan, Misir və iyirmidən artıq digər ölkənin milli düşüncə və mədəniyyətinin ifadə vasitəsinə

çevrildiyini göstərdi. Şumer-Azərbaycan dilinin qədim sözlərindən Hind-Avropa, sami, Qafqaz dillərinin də bəhrələndiyi, dünya dillərinin bir çoxunun zənginləşməsində bu dilin rolu olduğu əksər xarici ölkə alimləri tərəfindən təsdiqləndi. XIX əsrin sonuna qədər heç kəsin bəşəriyyətin öz mədəni intibahına görə Hind-Avropa dilli yunanlara minnətdar olmalı olduğuna şübhə etmədiyi halda, Raylinson, Oppert, Telbot, Lenormani, Qretefond, Xinqs kimi mütərəqqi dilçi-linqvistlərin ən qədim əlifbanın türkdilli Şumerlərə məxsus olması faktını aşkarlamasından sonra bu istiqamətdə geniş tədqiqatlar başlandı və Şumer dilinin türk dili olması haqqında fikirlər meydana gəldi.

Burada zaman məsələsinə xüsusi diqqət yetirmək lazım gəlir. Çünki aparılan araşdırma və təqdiqatlarda Şumer dilinin beş-yeddi min il bundan əvvəlki faktları ilə türk dillərinin, o cümlədən Azərbaycan dilinin son minillikdəki dil nümunələri müqayisəyə cəlb olunur. Müqayisə edilən tərəflər arasında ən azı beş min illik fərq olması, təbii olaraq, dil uyğunluqlarının bu uzun zaman kəsiyində aradan çıxmasına, unudulmasına səbəb olur.

F.Ağasıoğlu türk dilində feillərin milliyi məsələsinə diqqəti cəlb edərək yazır ki, "Türk dilləri, özəlliklə, azər türkcəsi söz dağarcığının ağzını müxtəlif nitq hissələri üzrə alınma sözlərə açıq saxlasa da, feillər üçün bu yol həmişə qapalı olmuşdur. Bu baxımdan dilimizdəki bəzi feillərin sumer dilində işlənməsi diqqət çəkir:

Azər türkcəsi	**Sumercə**	**Anlamı**
Burax-	bur-	"azad etmək"
Bağla-	pağ-	bağlamaq, "hasara almaq"
Ver- (ber-)	ba-	vermək
Dur-	dúr-//dúrun	durmaq, "rahatlanmaq"
Düş- (tüş-ərgə	túš-	oturmaq, "düşüb-qalmaq"
De-	di-	demək
Dol- (do-l)	du-	dolmaq
Tök-	dug-	tökmək (türkcə- dök- Y.Q.)
Eş-	eš-	eşmək
Qaç-	kaš-	qaçmaq, (türkcə: koş-)
Qal-	qal-	qalmaq, "yerləşmək"
Qıl- (kı-l)	kı-	qılmaq, "etmək"
Qoy- (ko-y)	ku-	qoymaq
Qoru-	kur-	qorumaq [1, s.179].

Bu feillərdə rast gəldiyimiz r~z, ş~l, g~Ø, d/t~c~y, z(s)/ş~y dialekt fərqlərinin isim, sifət, say kimi nitq hissələrində də türk- şumer paralelliyi olaraq özünü göstərdiyini yazan müəllif aşağıdakı nümunələri təqdim edir:

"poz(uq) – bur; biş(mək) "yandırmaq"- bil; altı-aššа,alan (açıq düzənlik) – aša(g); ig (xəstəlik)-gig; cırıq (yırtıq) – dirig; yumru (yumuru) – dubur; yarım (yarı) – šurim; çağa (uşaq) – sag; çibin (milçək) – zibin və s." [1, s. 180].

Burada bir cəhəti də qeyd etmək yerinə düşər ki, bu gün türk dilləri içərisində feillərin zənginliyinə və milliyinə görə ən çox seçilən dillərdən biri məhz Azərbaycan dilidir. Təkcə Azərbaycan dilinə digər dillərdən daha yaxın olan müasir türk dilinin leksik sistemini nəzərdən keçirdikdə dilimizdəki feillərin kəmiyyət üstünlüyü göz önündə canlanır. Yaxud da müasir özbək dilində ahəng qanununun itmək üzrə olması, türk dilində hətta əsas lüğət fonduna daxil olan kifayət qədər sözün (anne, elma, gidiyor, geliyor və s.) ahəng qanununa tabe olmuş ilkin variantlarının dəyişməsi ilə müqayisədə Azərbaycan dilində bu qanun daha çox qorunmuş, qədim fonetik, leksik, qrammatik kateqoriyalar da öz ilkinliyini daha çox saxlamışdır. Bu baxımdan F.Ağasıoğlunun tədqiqatları da maraq doğurur. Alim yazır ki, "İkihecalı sumer sözlərində sinharmonizm qanunu güclüdür, belə sözlərdə eyni sait işlənir: qaba "sinə", uru "şəhər", eger "arxa". Sumer dilində söz kökü dəyişmir, iltisaqi dillərdə olduğu kimi, şəkilçilər sözün sonuna dalbadal qoşula bilir" [1, s.180].

Türk və şumer dilləri arasında çoxsaylı sosial-siyasi termin və coğrafi vəziyyətlə, dövlətçilik, əkinçilik, heyvandarlıq, dəmirçilik, dulusçuluqla, eləcə də məişət əşyaları və alət adları ilə bağlı paralellər təqdim edən F.Ağasıoğlu bu faktların şumer-türk əlaqələrinin təkcə iki qonşu xalq arasında ticarət əlaqəsi ilə yox, həm də çox yaxın, sıx təmasla bağlı olduğunu qeyd edir. Müəllif

yazır ki, "Coğrafi durumla (landşaftla) bağlı bəzi azər-sumer paralellərində müəyyən dəyişmələr olsa da (əslində olmalıdır), onları asanlıqla seçmək olur. Belə ki, qır (kır, bozqır) sözü sumercə kiri sözündə, "torpaq" anlamında quru (kuru) sumercə kur sözündə, qum sumercə "xırdalamaq", "çınqıl" anlamlı "qum" sözündə və yaxa (yan) sumercə kənar anlamlı zağ sözündə görünür. Günəş tanrısı UTU – od/ot, Çoban ulduzu Şulpae – Çolpan." [1, s.181].

Bəzi türk dillərində qalan ordu (qarnizon, düşərgə) və uram (küçə, şəhər) sözünün or//ur kökünə şumer dilində şəhər mənasında işlənən uru, azər dilindəki ev sözünə e, qapı sözünə ka, oba sözünə "yaşayış yeri", "sahə, məntəqə" mənalı ub sözündə, qədim türk dilindəki "qəbilə", "uruq" (ur-oq), azər dilində oğlan, oğul mənalı oq sözünə "insanlar", "xalq" anlamındakı ÚG, UKÚ və "doğmaq", "övlad" mənalı ugú, eləcə də türk dillərindəki urva, uruq sözlərinin kökünə "qohumluq", "artım", "kürü vermə" mənalı ur, "şəhər", "icma" anlamlı uru torun (nəvə), törəmə sözlərinin kökünə "balaca" mənalı tur sözündə rast gəlindiyini göstərən tədqiqatçı-alim türkcədəki damğaçı, ərən, şad, bilgə sözlərinin də şumer dilində dam.gar, erim.ha "ordu", erin "əsgər", şatam "nəzarətçi, bilqa "görücü", "bilən", bayraq sözünü badara, gəlin sözünü E.Gi.A - evə gələn, saqqal sözünü vəzir mənalı sukal paralelləri ilə izah edir [1, s.181].

Nümunələrin sayını kifayət qədər artırmaq mümkündür. Belə ki, tədqiqatçılar Şumer dili ilə müasir Azərbaycan dili arasında yüzlərlə ortaq sözlər müəyyənləşdirmişlər. Faktlar göstərir ki, burada hansısa təsadüfdən və ya tipoloji uyğunluqdan söhbət gedə bilməz. Həmin dil ünsürləri birbaşa Şumer-Azərbaycan dili arasında mənşə-kök bağlılığının ifadəsidir. Belə ortaq sözlər müasir dilimizə, sözsüz ki, tarixi abidələrimizdə qorunaraq gəlmişdir. Bu baxımdan Ana abidəmiz sayılan "Kitabi-Dədə Qorqud"da kifayət qədər Şumer-Azərbaycan sözlərinin işlənməsi müşahidə olunur. Son araşdırmalar göstərir ki, dastanda əks olunan qədim türk düşüncə və həyat tərzi indiyə qədər deyildiyi kimi, yalnız eramızın əvvəlləri ilə bağlı deyil, eramızdan çox-çox qədim dövrlərlə bağlıdır. Bu baxımdan eposda qədim türk təfəkkür tərzi ilə Şumer düşüncə tərzini qarşılaşdıranlar bu ikisi arasında çox mühüm bağlılıq aşkar etmiş və bu bağlılığın qohumluq əlaqəsi olduğunu isbat etmişlər. Sözsüz ki, belə bir məntiqi nəticə türk tarixinin ən qədim dövrlərinə işıq salmaq imkanı verir. Bu mənada dastanın dilində rast gəlinən adların Şumer adları ilə əlaqəsini araşdırmaq olduqca maraqlı nəticələrin əldə olunmasına imkan yaradır. Arif Acalovun "Mənim ulu Atam və Kitabım" adlı əsərində dastandakı 100 etnonim, toponim, şəxs adı, mifik obraz və dini ifadənin izahı verilmişdir. İ.Şıxıyevanın apardığı statistik hesablamalar göstərir ki, "Dədə Qorqud"da işlənən 77 şəxs adından 50-si türk, 24-ü ərəb, 2-si fars mənşəlidir. Maraq doğuran budur ki, dastandakı türk mənşəli şəxs adları Şumer adları ilə yaxından səsləşir. Q.Kazımov göstərir ki, "Şumerlərin yaratdığı doqquz eposun çoxu qədim Azərbaycan dövləti olan Aratta ilə bağlıdır". E.Əlibəyzadəyə görə, "Bilqamıs" dastanının adı sonrakı türk dastanlarının bir sıra qəhrəmanlarının adı ilə eyni quruluşludur. Şumer, "Dədə Qorqud" və müasir Azərbaycan dili arasında eyni sözlərin müqayisəsini aparan Ə.F.Qorqud bir sıra onomastik vahidləri də təqdim etmişdir.

Əgər Qorqud sözünün izahını bu adı əmələ gətirən qor və qud sözlərinin Şumercədəki semantikasına uyğun izah etsək, "qor" od, "qut" isə qüvvət mənasında başa düşüləcəkdir. Ə.Fərzəli də qoşa işlənən "Dədə" və "Qorqud" sözlərinin ulu başlanğıcda eyni məzmunu ifadə etdiyini göstərir: "Dədə insana çevrilmiş, insanlaşmış Odun ilki, başlanğıcıdır. Özülə-bünövrəyə çevrilən Oddur" [6, s. 21].

Qədim və müasir dövrə aid Şumer-Azərbaycan ortaq sözlərinin sayını kifayət qədər artıqmaq olar. Ə.Nicat "Şumerlər kimdir? Dünyada ən ulu mədəniyyətin və ilk əlifbanın yaradıcıları hansı dildə danışıblar? Sualına cavab axtararkən yazır: "Təsəvvür edin ki, siz beş min il bundan qabaq Ur şəhərinin Niş və ya Çörəkçilər küçəsiylə getsəydiniz, ötüb keçənlərin dilindən arpa, saman, su, qarış, qanun, un, qullab, naqqa, min (pul vahidi), ən (böyük mənasında), tanrı kimi Azərbaycan sözlərini eşidərdiniz. Unutmayın ki, beş min il bundan qabaq" [19, s.7].

Bu gün Azərbaycan dilində Şumerdən daha qədim 10-12 min il yaşı olan çoxsaylı "Avesta" sözlərinin gen-bol işlənməsi də Azərbaycan dilinin nə qədər qədim tarixə malik olduğunu, "Avesta"-Şumer-Azərbaycan köklərinin bir xəttə bağlandığını bir daha sübut edir. E.Əlibəyzadə özünün "Ana kitabələr" adlı kitabında "Avesta" və Şumer dastanlarının dilinin türk-Azərbaycan dili olduğunu qətiyyətlə bildirir və bu danılmaz faktı inkar etməyin mümkünsüzlüyünü göstərir. Onun fikrincə,

"Avesta" əlifbasının və azı 2500 il ərzində Şumer-azər mixi (mıx şəkilli) əlifbasının e.ə.III-I minilliklərdə qədim dünyanın mədəni inkişafına çox güclü təsiri olmuşdur.

Şumer azərbaycanlıları ilə bağlı maraqlı məqamlardan biri də indiki Ərəbistan yarımadasından Afrika sərhədlərinədək böyük bir ərazidə qədim torpaqlarımızın mövcudluğudur. E.ə. IV-II minilliklərdə və daha əvvəlki çox-çox qədim dövrlərdə protoşumer və ya prototürklərin, yəni protoazərbaycanlıların məskunlaşdığını tarixi mənbələr və o dövrə aid xəritələr də sübut edir. "Ən qədim Şərq tarixi" adlı kitabda verilən xəritədə müasir Suriya və İraq əraziləri Mitiani İordaniya, Livan və Səudiyyə Ərəbistanının bir hissəsi isə Midian adlandırılmışdır. "Midian" adı qarşısında tərtibatçıların qoyduğu sual işarəsi düşünməyə əsas verir. Əslində bu toponimlərin ikisinin də Maday/Midiya adının variantı olduğunu söyləyənlər öz fikirlərində haqlıdırlar. Burada Ə.F.Qorqudun maraqlı bir fikrini yada salmaq yerinə düşər ki, "Bugünkü Məkkə, Mədinə (keçmiş Mədain?), Bağdad, Dəməşq (Damaşq – Ana işıq, Baş işıq), Bəsrə, Kərkük, Ərbil, Məndəl və başqa şəhər adları, Akaba (Ağ aba-Ağ ana – Ağ su: duzu çox olmağı səbəbindən suyu ağ rəngə çaldığına görə), Fərat çayı (Far od – Od kimi parlayan – qızğın, gur axan çay!), Dəclə (Daqla-Dağlardan axıb gələn çay, Dağ çayı) və digər toponim, hidronim, nəhayət adonimlər – insan adları: Məhəmməd, Əli, Hüseyn, Həsən, Şümür (Şümer), Ömər, Osman, Yaqub, Yusif, Süleyman Davud, Abbas, Murtuz, Mürsəl, Yamin, Yasir, Amin, Aminə və b. adların da etimoloji, yəni məzmun açımı onların türk-Azərbaycan mənşəli olmasından soraq verir" [19, s. 12].

Müəllif öz fikrini davam etdirərək belə bir məntiqli və əhəmiyyətli qənaətə gəlir ki, "Əlbəttə, bütün bu və digər toponim, hidronim və adonimlərin hazırda ərəb və ümumi halda sami dillərinə aidliyi də inkar olunmur. Söhbət sami dillərinin formalaşdığı ən əski çağlardan gedir. Bu, həm də ulu dil hadisəsidir". Görkəmli şərqşünas V.Məmmədəliyev ərəb dilinə keçən türk sözlərini, o cümlədən "Quran"da işlənən türk sözlərinin tarixini araşdıraraq belə bir haqlı qənaətə gəlmişdir ki, məsələ ilə bağlı düzgün nəticələr əldə etmək üçün qədim sami-türk əlaqələri dəqiqliklə araşdırılmalıdır. Müəllif hələ 1983-cü ildə "Azərbaycan filologiyası məsələləri" adlı kitabın I hissəsində nəşr etdirdiyi "Quranda ümumtürk mənşəli sözlər" adlı məqaləsində yazır: "Tarixi qaynaqlardan bəllidir ki, Sam tayfaları Ön Asiyaya gəlməmişdən çox əvvəl həmin region Şumerlər və Orta Asiyadan axışıb gələn qəbilə və tayfalarla məskun idi, Zaqros dağlarından Anadolunun içərilərinə, Livan və Fələstin dolaylarına qədər yayılmış ön şumerlərdən (protoşumerlər) sonra buraya Şumerlər gəlmiş, Aşağı Mesopotomiyada məskən salmışdır" [s.87]. Bu prosesdə Şumerdən dönən azərlərin bir hissəsi Bağdad – Kərkük ərazisinə gəlmiş, burada sıx şəkildə məskunlaşmış, öz dilini və mədəniyyətini qoruya bilmişlər. Eramızdan əvvəl III minilliyin ortalarından sami tayfalarının hazırkı Ərəbistan ərazilərinə hücumları nəticəsində Şumer türklərinin Mesopotomiyanın cənubuna sıxışdırılması ilə onların Urmiya-Araz, Xəzər dənizi sahilləri ilə əlaqələri zəifləmişdir. Buna baxmayaraq, Şumer azərbaycanlıları hələ yenə 1000 ilə yaxın ümümdünya sivilizasiyasına hökm edə bilmişlər. Eramızdan əvvəl II minillikdən etibarən gəlmələrin say baxımından çoxluğu Şumer türklərinin-azərbaycanlıların bir hissəsinin assimilyasiyaya uğramasına səbəb olsa da, mədəniyyətimizin izləri Fələstində, Suriyada, hətta Hind çayı vadilərində belə qalmaqdadır. Samilər bu torpaqlarda öz hökmranlığını gücləndirsələr də, Şumerlərin çox ciddi təsirinə məruz qalmışlar. Zaman-zaman Şumer azərbaycanlılarının bir qismi Urmiya-Xəzər ərazilərinə, Ön Asiya və Altay dağlarına gedib qohum dillərinə qarışmış, bir qismi isə indiki İraq, Suriya, Yəmən, Küveyt, Səudiyyə Ərəbistanı, Livan və Fələstin ərazilərinə köçmüşlər. Zaman ötdükcə həmin Şumer-azərbaycanlılar samiləşmiş, yəni ərəbləşmiş, dilimiz sami tayfalarının dillərinə, onların leksik-qrammatik quruluşuna çox güclü təsir göstərmişdir. Sami dilləri, əsasən də ərəb və yəhudi dilləri Şumer-Azəri-türk dili hesabına zənginləşmişdir. Ərəb dilinə daxil olmuş yüzlərlə Azərbaycan sözü ərəbləşmiş, öz ilkin məzmunu ilə təzə "ərəb libası" geyinərək çoxu ərəb sözü adı altında yenidən dilimizə daxil olmuşdur. Bu qədim dil dünyanın bir çox dillərinə, o cümlədən sami, Hind-avropa dillərinə çox ciddi təsir göstərmiş, həmin dillərin leksik-qrammatik cəhətdən zənginləşməsində tarixən mühüm rol oynamışdır. F.Ağasıoğlu dilimizə ərəb dilindən keçdiyi şübhə doğurmayan şeir sözünün də şumer mənşəli olduğunu sübuta yetirməyə çalışır və inandırıcı faktlarla buna nail olur: "Sumer-türk paralelləri sırasında "türkü", "qoşma" anlamında şir- yır sözləri göstərir ki, söz sənəti

ilə bağlı sumer dilindəki şir-yır sözü sami dillərə keçmiş, sonralar biz öz sözümüzü yenidən ərəblərdən şe'r kimi almışıq" [1, s.183]

Maraqlıdır ki, Azərbaycan dilinin Şəki şivəsində ağı mənasında yığı, Dərbənd, Şəki, Zaqatala, Qax şivələrində ağlamaq mənasında yığlamaq, Kürdəmir, Quba şivələrində isə məclis mənasında yığva sözləri işlədilir (Azərbaycan dilinin dialektoloji lüğəti. səh.550). Bu söz qədim türk lüğətində də "oxumaq", "mahnı" mənasında verilir [Drevnetyukskiy slovar, "Nauka", L, 1969, s.268]. B.Xəlilov da bu sözün qədim türkcədə "mahnı" mənasında işləndiyini göstərərək yazır ki, "Qədim türkcədə yırla sözü də işlənmişdir. Bu söz (y-ır//ır) yır kökündən əmələ gəlmiş və "oxumaq (mahnı)" mənasını bildirmişdir: ol yır yırladı - o mahnı oxudu". [9, s.34].

T.V.Nüvədili özünün "Əcdad" adlı kitabında indiyə qədər dünya xalqlarının yunan sözü kimi tanıdığı bir çox sözlərin məhz qədim şumer-Azərbaycan sözləri olduğunu nümunələr əsasında izah etmişdir. Kitabda oxuyuruq: "Yunanların arxeoloq sözünü ulularımızdan almalarına şübhə yoxdur. Arxeoloq arxayos və loqos sözlərinin birləşməsidir. Arxayos – qədim, ön, arxa, loqos bilik, öyrənmək, danışmaq deməkdir" [20, s. 335].

Tədqiqatçı loqos sözünün kökünün də dilimizdəki zarafat mənalı lağ və ya söhbət, danışıq mənalı laf sözü ilə səsləşdiyini, arxaik sözünün arxalaşmış, qocalmış mənasında yenə eyni kökdən yarandığını, homogen sözünün isə həmin gen mənasını verdiyini inandırıcı şəkildə izah etmişdir. Aydın məsələdir ki, bu gün tibbi termin kimi Avropa mənşəli hesab edilən ur, uroloq, urologiya kimi sözlər də məhz qədim dilimizdəki şişmək, qabarmaq, yüksəlmək, qalxmaq mənalı ur sözündən yaranmış, "Dədə Qorqud"da "yerindən uru turdı" ifadəsinin tərkibində də qalxmaq mənasında işlənmişdir.

Faktları istənilən qədər çoxaltmaq mümkündür, lakin elə bu deyilənlərdən də aydın olur ki, bu gün ərəb, fars, yunan və Avropa dillərinə aid edilən sözlərin xeyli hissəsi məhz qədim Şumer-Azərbaycan sözləridir. T.V.Nüvədili bu tipoloji cəhətdən müxtəlif olan dillərdə eyniköklü sözlərlə bağlı apardığı uzunmüddətli araşdırmalar əsasında qənaətini belə ümumiləşdirmişdir ki, "İndi bizim lüğət tərkibimizdə 60-65 faiz ərəbin, farsın saydığımız sözlərin hamısı özümüzündür, onlar bizim dopdoğmalarımızdır. Çünki gil yazılar yazılanda hələ dediyim dillərin heç daşıyıcıları belə dünyaya gəlməmişdilər... Onu da qeyd edim ki, bizdən aralı düşsələr də, bizə yad olan İbruda da, elə Yunan dilində də nə qədər istəsəniz, Şumer-Azəri sözlərinə rast gələrsiniz" [20, s.336].

Müəllif öz araşdırmalarının yekununda belə bir qəti qənaətə gəlir ki, "Şumer deyilib ölü sayılan dil Azəri Türküsüdür! Və bu dil dünya dillərinin ilkinidir" [20, s.336].

Bu deyilənlər Azərbaycan dilinin türk dilləri, o cümlədən dünya dilləri arasında yeri və rolu məsələsini aydınlaşdırmağa kömək etdiyi kimi, dilimizin qədimliyini və zənginliyini dərk etməyə, dilimizin ən qədim tarixində özünü göstərən ulu dil hadisələrini dərk etməyə imkan verir.

Maraqlıdır ki, digər türk dilləri içərisində tarix boyu ana dilinə münasibətdə də azərbaycanlılar daha çox fərqlənmişlər. Hələ XVI əsrdə ərəb və fars dillərinin əsas dil olaraq işləndiyi, hətta özlərini türk varisi olaraq elan edən Osmanlı sarayında dövlət dilinin fars dili olduğu bir şəraitdə Şah İsmayıl türk dilini dövlət dili səviyyəsinə qaldırmaqla bu qədim və zəngin dilin nüfuzunu özünə qaytarmış oldu. Təkcə bununla kifayətlənmədi, dilimizin nüfuz dairəsinin genişlənməsinə kömək etdi, dövlət idarələrində, sarayda, hərbi hissələrdə işlənən rəsmi dillər arasında dilimizi dövlət dili kimi işlək vəziyyətə gətirdi. Nəticədə Azərbaycan dilinin hərbi-siyasi leksikasında türk sözlərinin sayı çoxaldı, ana dilində rəsmi üslubumuz meydana gəldi. Azərbaycan dilində fars sözlərindən istifadə olunduğu kimi, fars dilinə də türk sözlərinin axını başladı. Divan ədəbiyyatında türk dilində heca vəznli əsərlər yazan və klassik ədəbiyyatda heca vəzninin mövqeyini sabitləşdirən sənətkar kimi fars dilinin şeir-sənət dili olaraq ikinci plana keçməsinə zəmin yaratmış oldu. Doğru göstərirlər ki, məhz Şah İsmayıl Səfəvinin başlatdığı ənənə nəticəsində ədəbiyyatımızın Məhəmməd Füzuli kimi dahisi yetişmiş oldu.

Nəticə. Beləliklə, dünyaya "Avesta", "Kitabi-Dədə Qorqud" kimi zəngin sənət xəzinələri, Nizami, Nəsimi, Xətai, Füzuli kimi bənzərsiz sənətkarlar bəxş edən Azərbaycanın qədim tarixi öyrənildikcə ortaya yeni-yeni maraqlı faktlar çıxır, dilimizin qədimliyi, nüfuz dairəsinin genişliyi haqqında təsəvvürlər daha da genişlənir. Azərbaycan ərazisində məskunlaşmış ilk insanların türk tayfaları olduğu, ərazimizin hər zaman aparıcı etnosunun türklərdən ibarət olduğu, türklərin tarix

səhnəsinə məhz Azərbaycandan gəldiyi tarixi həqiqətdir və tarixi fakt nə qədər ört-basdır edilsə də, artıq həqiqəti pərdələmək mümkün deyildir.

İstifadə olunmuş ədəbiyyat:

1. Ağasıoğlu F. Doqquz bitik. Azərbaycan türklərinin islamaqədər tarixi.Bakı, Ağrıdağ, I cild. 2014
2. Bəşirov K.Oğuz qrupu türk dillərində qrammatik morfemlər. Bakı, Elm və təhsil, 2009
3. Budaqova Z., T.Hacıyev. Azərbaycan dili. Bakı, Elm, 1992
4. Bünyadov Z.Azərbaycan VII-IX əsrlərdə. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1989
5. Əlibəyzadə E. Azərbaycan xalqının mənəvi mədəniyyət tarixi. Bakı, Gənclik,1998
6. Fərzəli Ə. Dədə Qorqud sözü. Bakı, Maarif, 1999
7. Həbiboğlu V. Qədim türklərin dünyagörüşü. Bakı, 1996
8. Xəlilov B. Fellərin ilkin növləri. Bakı, APİ-nin nəşriyyatı, 1998
9. Xəlilov B. 224 qədim türk sözü. Bakı, Elm və təhsil, 2013
10. Xəlilov B. Türkologiyanın intibah dövrü (XIX əsrin sonu XX əsrin 30-cu illərinə qədər). Bakı, Adiloğlu, 2001
11. İsmayıl M. Azərbaycan tarixi. Bakı, Adiloğlu, 2005
12. Kazımov Q. Azərbaycan dilinin tarixi. Bakı, Təhsil, 2003
13. Köprülü. F. Azəri. Bakı, Elm. 2000
14. Гасанов З. Царские скифи. Liberti publishing house, Nyu York, 2002
15. Qaşqay S. Manna dövləti. Bakı, Azərnəşr, 1993
16. Qeybullayev Q. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı, Azərnəşr, 1994.
17. Məmmədov A. Türk dillərində samit səslər: sözönü və səs birləşmələri. Namizədlik dissertasiyası. Bakı, 1978
18. Mirzəyev H. Müasir Azərbaycan dilinin morfologiyasından xüsusi seminar. Bakı, APİ-nin nəşri. 1974
19. Nicat Ə. Tarixin sübh çağı. Bakı, Elm, 1982
20. Nüvədili T.V. Əcdad. ABŞ. Los-Anceles, 1996
21. Süleymenov O. Azya. Bakı, Şərq-Qərb, 2007
22. Yusifov Y. Qədim Şərq tarixi. Bakı, BDU-nun nəşriyyatı, 1993

UOT-811.512.162

AZƏRBAYCAN VƏ TÜRK DİLLƏRİNDƏ UŞAQ FOLKLORUNDA FONETİK TRANSKRİPSİYANIN BƏDİİ ÜSLUBİ İMKANLARI

Könül Həsənova
Filologiya üzrə fəlsəfə doktoru
Azərbaycan Dövlət Pedaqoji Universiteti
Bakı, Azərbaycan
konul_salmanova@mail.ru
Orcid: 0000-0003-1490-5751

Xülasə

Türkologiyada, o cümlədən Azərbaycan filologiyasında janr və həcmdən asılı olmayaraq şifahi xalq ədəbiyyatının poetik nümunələrinin dilçiliklə tədqiqi obraz və bədii obraz yaradıcılığının əsası kimi önə çəkilmişdir. Bu prosesdə eyni adət-ənənələrə, dilə, tarixə malik türk türkləri ilə Azərbaycan xalqının yaratdığı folklor nümunələrinin, o cümlədən layla və nəğmələrin müqayisəli təhlili məsələsi diqqət mərkəzində olmalıdır. Fonetik transkripsiyanın işlənməsi baxımından türk laylaları ilə Azərbaycan laylaları bir sıra dil elementlərinə görə oxşar olsa da, həm də fərqli, özünəməxsus cəhətlərə malikdir. Bu dil elementləri bu folklor nümunələrinin daha axıcı, ahəngdar və idiomatik olması, xalq dilinin zənginliyini özündə ehtiva etməsi və qoruması ilə seçilir. Layla və oxşamalarda xalqın dünyagörüşü, adət-ənənələri, ailə, ana-övlad münasibətləri və digər məsələlər əks olunur. Ona görə də bu folklor nümunələri eyni kökdən yaranan Azərbaycan və türk xalqlarının bu cəhətdən də yaxınlığını üzə çıxarır. Azərbaycan dili ilə müqayisədə Türkiyə türklərinin dilində söz,ifadə və morfoloji formaların danışıq dilində işlənmə imkanları Azərbaycan dilinə nisbətən daha məhduddur. Burada sözlərin böyük əksəriyyəti danışıq dilində də yazılış qaydasına uyğun əks olunur. Digər tərəfdən bu dildə bir çox şəkilçilər, o cümlədən *-dır* xəbərlik şəkilçisi son samiti ixtisar olunmadan yazılışa uyğun işlənir. Ümumən, fonetik transkripsiya folklor nümunələrinin daha axıcı, uyumlu və diləyatımlı olması, xalq dilinin zənginliyini özündə ehtiva edib qoruması ilə fərqlənir. Bu nümunələr Türk və Azərbaycan dillərinin poetik imkanlarını, xalq şeirlərində fonetik transkripsiyanın dilin təbiilik göstəricisi rolunu aydınlaşdırır.

Açar sözlər: layla, dördlük, folklor, transkripsiya

ARTISTIC STYLISTIC POSSIBILITIES OF PHONETIC TRANSCRIPTION IN AZERBAIJANI AND TURKISH CHILDREN'S FOLKLORE

Konul Hasanova
Doktor of philosophy on philology
Azerbaijan State Pedagogical University
Baku, Azerbaijan

Summary

In Turkology, including Azerbaijani philology, linguistic research of poetic examples of oral folk literature, regardless of genre and volume, is highlighted as the basis of image and artistic image creation. In this process, the issue of comparative analysis of folklore examples, including songs and songs created by Turkish Turks with the same traditions, language, and history, should be in focus. In terms of processing phonetic transcription, Turkish lullabies and Azerbaijani lullabies are similar in terms of a number of linguistic elements, but they also have different, unique aspects. These language elements are distinguished by the fact that these folklore examples are more fluid, harmonious and idiomatic, and contain and preserve the richness of the folk language. The world view, traditions, family, mother-child relations and other issues are reflected in songs and rhymes. Therefore, these examples of folklore reveal the closeness of the Azerbaijani and Turkish peoples, which originated from the same root.

Compared to the Azerbaijani language, the possibilities of processing words, expressions and morphological forms in the spoken language of Turkish Turks are more limited than in the Azerbaijani language. Here, most of the words are also reflected in the spoken language in accordance with the order of writing. On the other hand, many suffixes in this language, including the suffix -dır, are used according to the

spelling without shortening the last consonant. In general, phonetic transcription is distinguished by the fact that folklore samples are more fluid, harmonious and melodic, and contain and preserve the richness of the folk language. These examples clarify the poetic possibilities of the Turkish and Azerbaijani languages, the role of phonetic transcription in folk poems as an indicator of the naturalness of the language.

Key words: lullaby, quatrain, folklore, transcription

ХУДОЖЕСТВЕННЫЕ ВОЗМОЖНОСТИ ФОНЕТИЧЕСКОЙ ТРАНСКРИПЦИИ В ДЕТСКОМ ФОЛЬКЛЕРЕ В АЗЕРБАЙДЖАНСКОМ И ТУРЕЦКОМ ЯЗЫКАХ

Конуль Гасанова
Доктор философии по филологии
Азербайджанский Государственный Педагогический Университет
Баку, Азербайджан

Резюме

В тюркологии, в том числе и в азербайджанской филологии, лингвистическое исследование поэтических образцов устного народного творчества, независимо от жанра и объема, выделяется как основа образно-художественного образотворчества. При этом в центре внимания должен быть вопрос сравнительного анализа фольклорных образцов, в том числе песен и песен, созданных тюрками-тюрками с одинаковыми традициями, языком и историей. С точки зрения обработки фонетической транскрипции турецкие колыбельные и азербайджанские колыбельные похожи по ряду лингвистических элементов, но они также имеют разные уникальные аспекты. Эти языковые элементы отличаются тем, что эти фольклорные образцы более подвижны, гармоничны и идиоматичны, содержат и сохраняют богатство народного языка. Мировоззрение, традиции, семья, отношения матери и ребенка и другие вопросы находят свое отражение в песнях и стишках. Поэтому эти образцы фольклора раскрывают близость азербайджанского и тюркского народов, происходящих от одного корня.

Ключевые слова: колыбельная, четверостишие, фольклор, транскрипция.

Annotasiya. Məqalədə tarixən eyni kökə malik, minilliklərdən gələn ortaq tarix və dünyagörüşə malik Azərbaycan və türk xalqlarının folklorunda özünəməxsus yer tutan layla, oxşama və ninnilərin müqayisəli təhlili aparılmış, bu xalq şeir janrlarında özünü göstərən xüsusiyyətlər araşdırılmışdır. Xalq danışıq dilində yaranan bu el şeirlərində fonetik transkripsiya ünsürləri hər iki dildə müqayisəli təhlil olunmaqla belə qənaətə gəlinmişdir ki, Azərbaycan dili layla və oxşamaları danışıq dili vahidlərini, söz, şəkilçi və qrammatik formaların tələffüz variantlarını əks etdirdiyi halda, türk dilində yaranan ninnilər daha çox yazılı dil qaydalarına əsaslanır.

Aktuallıq. Layla və oxşamalar, həmçinin ninnilər məişət nəğmələri olduğundan bu xalq şeir növü özündə mənsub olduğu xalqın tarixini, onun minilliklərdən gələn dil xüsusiyyətlərini, o cümlədən poetik imkanlarını üzə çıxarmaq baxımından əhəmiyyətlidir. Azərbaycan və türk xalqları qohum dillər olduğundan bu iki dilin məişət nəğmələri arasında xüsusi yer tutan layla, oxşama və ninnilərin müqayisəli təhlili xüsusi əhəmiyyətə malikdir. Belə ki, bu folklor nümunələrinin təhlili türk və Azərbaycan xalqının ailə münasibətlərini, ana-övlad bağlılığını, eləcə də bu iki xalqın dünyagörüş və adət-ənənələrinin oxşar və fərqli cəhətlərini üzə çıxarmağa imkan yaradır.

Metod. Mövzunun araşdırılmasında təsviri və müqayisəli metodlardan istifadə edilmişdir.

Giriş. Türkologiyada, o cümlədən Azərbaycan filologiyasında janrından və həcmindən asılı olmayaraq, şifahi xalq ədəbiyyatına aid poetik nümunələrin linqvistik tədqiqi obraz və bədii təsvir yaradıcılığının təməli kimi işıqlandırılmışdır. Bu prosesdə eyni kökdən törəyən, adət-ənənələri, dili, tarixi eyni olan Türkiyə türkləri ilə Azərbaycan xalqının yaratdığı folklor nümunələrinin, o cümlədən layla və oxşamaların müqayisəli təhlili məsələsi də diqqət mərkəzində olmalıdır. Çünki poetik mətnlərə linqvistik həssaslıqla yanaşma bədii nümunələrdə poetik incəliklərin linqvistik ifadə görümlərini aşkara çıxarıb, dəyərləndirməyə imkan verdiyi kimi, bu iki qardaş xalqın ailə münasibətlərini, ailədə körpələrin təlim-tərbiyə və əzizlənmə məsələlərini də müqayisə etmək imkanı verir. Şeir dilinin sirlərini açmaqla yanaşı, günümüzə şifahi şəkildə, ağızdan-ağıza ötürülməklə gələn layla və oxşamalar özündə təbiiliyi yaşadan, qoruyan maraqlı poetik nümunələr

olduğundan xalqımızın qədim dünyagörüşünün, həyata baxış tərzinin də türk qardaşlarımızla qarşılıqlı müqayisədə öyrənilməsinə imkan yaradır. Folklorun bu sahəsini tərif və xarakterizə etmək başqa xalqlarda daha çətin bir proses kimi görünsə də [13, s. 11] biz əminliklə deyə bilərik ki, nümunələr "özünəməxsus dilə, poetik lüğətə və aydın, sadə üsluba" [12, s. 111] malikdir.

Ana ilə körpə arasında yaranan doğma və səmimi bir ruhda "doğulan" bu nümunələrin bu iki dildə poetik dilinin ifadəlilik imkanlarından danışdıqda fonetik vasitələrə toxunmamaq, ondan yan keçmək olmaz. Bu şeir nümunələrinin dilindəki fonopoetik üsulların şeir daxilində yaratdıqları üslubi-semantik çalarları aşkara çıxarmaq zəruri və maraqlıdır. Çünki istər Azərbaycan dilində, istərsə də Türkiyə türkcəsində layla və oxşamaların fonetik ifadə üsulları olduqca zəngindir. Belə ki, layla və oxşamalar mühüm fonoloji vasitələrin daşıyıcıları kimi, bədii düşüncənin obrazlı ifadəsinə xidmət edir. Burada fonopoetik vasitələr lirik təhkiyəni canlandırır və gücləndirir, məzmunun gerçəkləşməsində, üzə çıxmasında təməl rolu oynayır.

Sözlərin, ifadələrin və cümlələrin mənaları ilə səslənməsi arasında ahəngdarlığın təmin edilməsi üçün istifadə olunan fonetik vasitə və imkanlar "*fonetik üslubi vasitələr*" adlanır [7, s. 144]. Ə. Dəmirçizadənin də qeyd etdiyi kimi, dildəki ifadəlilik vasitələri içərisində xüsusi yer tutan fonetik vasitələrlayla və oxşamaların məzmun və ideyasının açılmasında xüsusi rol oynayır. Ona görə də layla və oxşamalarımızın türk dili ilə müqayisədə öyrənilməsi, onların ilk ritmik, fonopoetik xüsusiyyətlərinin araşdırılması, dövrümüzə gəlib çatan folklor nümunələrində onların izləri qədim ortaq şifahi poeziyamız haqqında da təsəvvür yarada bilər.

Fonetikanın tədqiqat obyekti və materialı sayılan danışıq səsləri, heca, vurğu, intonasiya, fonetik transkripsiya və b. fonopoetikanın da elementləri sayılır. Ümumxalq dilinin ruhunu və estetik qüvvəsini daha çox özündə hiss etdirən bu lirik növ nümunələri fonetik üslubi vasitələrin araşdırılması baxımından zəngin mənbə sayıla bilər.

Bu şeirlərdə fonetik üslubi vasitələrdən: transkripsiya, assonans, alliterasiya, həmqafiyə sözlər, anafora və epifora daha çox diqqəti cəlb edir.

Fonetik transkripsiya layla və oxşamalarımızda canlı danışıq dilinin ritmini, səs-ahəng birliyini təcəssüm etdirir. Məhz buna görə də, layla və oxşamaların fonetik sisteminə məxsus akustik imkanları, onların fəal estetik mövqeyini, yaratdığı forma kamilliyi fonetik transkripsiyasız təsəvvür etmək mümkün deyil.

Təbii ki, fonetik transkripsiya səs variantlarını olduğu kimi yazıda göstərmək məqsədi ilə işlədilsə də, onun funksiyası şeir dilində tam başqadır. Layla və oxşamalarda istifadə olunan sözlərin tələffüz formasında olan yazılışları dili rəsmilikdən təbiiliyə çevirmək üçündür. Bu sözlər dinləyicidə daha real bir görüntü yarada bilir. Sözün tələffüz formasında səsləndirilməsi ilə səs naxışlarının bədii çalarları qabardılır. Layla və oxşamaların yaratdığı estetik həyəcanlar ritm və ahəng əlvanlığı kəsb edir:

Dəsmalı *kirri* balam,
Qəlbi *fikirri* balam,
Gözəllərin içində,
Hamıdan şəkilli balam [5, s. 687].

Nümunədə fərqlədirilmiş sözlərdən də göründüyü kimi, "kirri" və "fikirri" sözləri tələffüz formasına uyğun verilmiş, şeirin dilini təbiiləşdirmişdir. Nəzərə alsaq ki, bu şeir nümunələri yazının elə də inkişaf etmədiyi dövrdə yaranmış və ağızdan-ağıza ötürülərək şifahi şəkildə çağdaş zəmanəmizə gəlib çatmışdır, burada fonetik transkripsiyanın üslubi rolunun daha güclü ola biləcəyi təəccüb doğurmamalıdır.

Azərbaycan dilində olduğu kimi, Türkiyə türklərinin dilində oxunan uşaq nəğmələrinin – ninnilərin dilində də fonetik transkripsiyaya, sözlərin tələffüz variantlarına çox tez-tez rast gəlinir. Aşağıdakı nümunəyə diqqət yetirək:

Al babası, al, babası,
Yağlığımı sar, babası

Oğlun mektebe *hazırra,*
Kitap al da sal, babası.

Təqdim etdiyimiz nümunədə "oğlunu" əvəzinə "oğlun", "hazırla" əvəzinə "hazırra" sözləri tələffüz formasında verilən fonetik transkripsiya dili kimi ninninin danışıq dilində deyilməsinə imkan yaratmış, daha təbii dil elementi kimi ortaya çıxmışdır. Başqa bir nümunəyə diqqət edək:

Çalkan, Karadeniz, çalkan,
Gemilerdeoluryelken.
*Burusa*da Emir Sultan,
Himmet et, oğlumuyusun.

Göründüyü kimi, şeirdə "Bursa" sözü "Burusa" variantında işlənməklə danışıq dili vahidi kimi həm təbiilik və axıcılığın, həm də heca bərabərliyinin yaranmasına səbəb olmuşdur.

Təsadüfi deyil ki, nəzm əsərlərinin formasında təzahür edən fonetik transkripsiyalar dilçilik elmini də intensiv məşğul etmişdir.

M.Hüseynova da folklor dili və üslubu üçün ədəbi dilin transkripsiyasını həm normal, həm də təbii hadisə hesab edir. Müəllif qeyd edir ki, "*folklor nümunələri müxtəlif tarixi dövrlərin ədəbi nümunələri kimi ağızdan-ağıza keçərək dilimizin danışıq qaydalarına uyğunlaşdırılaraq çağdaş zəmanəmizə çatdığından və şifahi yolla yazıya alındığından mövcud örnəklərin dilində ədəbi tələffüzün transkripsiyasından, yəni bu əsərlərin ümumi lüğət fondunu təşkil edən sözlərin ədəbi tələffüz şəraitinə uyğun şəkildə yazılması təbiidir*" [8, s. 6]. Bu xüsusiyyət Azərbaycan dilində olduğu qədər Türkiyə türkcəsində söylənən ninnilərin dili üçün də eyni dərəcədə xarakterikdir.

Layla və oxşamaları ifa edən tərbiyəçilərimiz bəzən sözlərin "*nitq üçün səciyyəvi olan tələffüz variantını*" [10, s. 156] işlədir. Layla və oxşamalarda orfoqrafik normanın bu cür yerini orfoepik normaya verməsi sanki şeirlərə canlılıq gətirərək, daha axıcı səslənməsinə şərait yaradır. Bu barədə bir mənbədə deyilir ki: "*Şeirin məntiqi və emosional oxunuşu ilk baxışdan bəyənilir*" [160, s. 31]. Bu cəhətdən layla və oxşamaların transkripsiyası bədii fikri düzgün fəhm etmək, anlamaq üçün olduqca vacib amildir. Təbii ki, həyatı dərk etməyə təzəcə başlamış körpə dinləyicilərin sözləri və hissləri daha tez qavramalarına kömək edir.

Orfoqrafik normanın pozulması halları layla və oxşamalarda özünü ən çox özünü bəzi şəkilçilərin, sait və samitlərin yazılışında göstərir. Bunlardan bəzilərinə misallarla nəzər salaq:

-lar[2] cəm şəkilçisi dilimizdə sonu *ş, t* samitləri ilə bitən sözlərə qoşulduqda -dar[2] kimi tələffüz edilir. Bu da orfoepik normaya uyğun tələffüzdür. Aşağıdakı nümunələr göstərir ki, sözün tələffüz variantı dil faktlarının bədii məqsədə uyğunlaşdırılmasından irəli gəlir:

Dağdakı *atdar,*
Quyruğun *qatdar,*
Göyçək *arvatdar,*
Bu balama qurban [9, s.193].

-lar[2] sonu sonor *"n"* samiti ilə bitən sözlərə bitişdirildikdə *-nar, -nər* formasında tələffüz edilir ki, bu da ədəbi dilin transkripsiyasıdır. *"l"-"n"*əvəzlənməsi sözdə uyarlılıq yaradaraq ekspressiv təsiri biraz da gücləndirir, layla və oxşamaların musiqili ahəngində mühüm rol oynayır. Bununla bədii ovqatın akustik rəngləri meydana çıxır. Tələffüz formaları poetik effekt yaradaraq mətnin struktur bütövlüyünü təmin edir:

Qızım-qızım nazana,
Qızımın saçı uzana,
Qızıma pis *baxannar,*
Görüm düşsün qazana [9, s. 193].

Eyni hadisəyə Türkiyə türkcəsinin ninni nümunələrində də rast gəlirik:

Ninni disem, yaraşır,
Gül bahçeyi dolaşır.
Mahlemizin *kızdarı*
Benim oğluma sataşır.

Nümunədəki "kızdarı" sözündə -lar cəm şəkilçisi danışıq dilinə uyğun olaraq "-dar" şəklində işlənməklə fonetik transkripsiya ünsürü kimi ninniyə daxil olmuş, şeirin dilini daha da canlılaşdırmışdır. Lakin türk dili ninniləri üzərində apardığımız araşdırma göstərdi ki, bu dildə -lar şəkilçisi əksər hallarda yazl dilində olduğu kimi işlənməklə transkripsiya əlamətlərinə uyğunlaşmır. Məsələn:

Dağa vardım, dağ uyur,
Dağda *tavşanlar* uyur.
Ben kızıma ne derim,
Kızım beşikte uyur.

Xüsusi qeyd edilməlidir ki, səs dəyişmələri bütün türk dilləri üçün xarakterik hadisə hesab olunur və türkologiyada bu problem bir çox dilçi alimlərin diqqətini də cəlb etmişdir. Məsələn, B.A.Serebrannikov, N.Z.Hacıyeva türk dillərində *"l"* samitinin dəyişməsi mövzusundan danışarkən, qeyd edirlər ki, *-lar* affiksi ancaq saitlə və ya sonorla bitən isimlərin əsasından sonra saxlanılır: qazax dilində çöl*lər*(dalalar); qırğız dilində alma*lar* (almalar); altay dilində kır*lar* (dağ silsilələri) və s. Əgər sözün əsası sonor olmayan hər hansı bir başqa samitlə bitərsə, *-lar* affiksi *-tar//-dar* variantına keçir. Məs: qazax dilində kız*dar* (qızlar), zat*tar* (şeylər) və s. [11, s. 88].

Tuva, xakas, şor və yakut dillərində əsasən bu qaydalar qüvvədədir. Lakin qeyd olunur ki, bu dillərdə cəm şəkilçisinin yeni *-nar* variantı meydana çıxır. Bu, o zaman olur ki, sözün sonu burun samiti *n(və ya yan*) ilə bitir [11, s. 88].

Bu şəkilçi bəzi məqamlarda orfoqrafik normaya uyğun da yazıla bilir. Cəm şəkilçisinin bu cür işlənməsinə də nümunələrdə az-çox rast gəlirik:

Göydəki quş*lar* bu balama qurban,
Yağan yağış*lar* bu balama qurban,
Kişnəyən at*lar* bu balama qurban
Sonsuz arvad*lar* bu balama qurban [3, s. 62].

Yuxarıda verilən nümunədən belə bir nəticəyə gəlmək olur ki, "quşlar, yağışlar, atlar, arvadlar" heç də yazıldığı kimi tələffüz olunmur. Bu sözlərin yazıldığı kimi səsləndirilməsi əslində orfoepik normanın pozulmasıdır. Buna görə də belə bir qənaət hasil olur ki, kitab tərtibçiləri xalq tələffüz formasını əsas tutmamış və orfoqrafik prinsiplə mətni köçürmüşlər.

Qeyd edək ki, Azərbaycan dili ilə müqayisədə Türkiyə türklərinin dilində söz, ifadə və morfoloji formaların danışıq dilində işlənmə imkanları Azərbaycan dilinə nisbətdə daha məhduddur. Burada sözlərin böyük əksəriyyəti yazılış qaydasına uyğun əks olunmaqdadır.

-dır[4] xəbərlik şəkilçisinin sonundakı "*r"* samitinin düşməsi ədəbi dilin orfoepik normasına uyğundur. N.Abdullayev şəkilçilərin tələffüzü ilə bağlı qaydaları sadalayarkən bu şəkilçinin də düzgün tələffüzdə *-dır[4]* yox *-dı[4]* kimi deyildiyini qeyd edir [1, s. 123]. Aşağıdakı oxşama nümunələrində *budur* sözü, *budu* kimi, *körpədir* sözü *körpədi* kimi verilir və burada "*r"* samitinin düşməsi ardıcıl parçaların daha nizamla düzülməsinə imkan verir:

Qızılgül bağın olsun,
Bağlar oylağın olsun,
Tanrıdan əhdim *budu,*
At minən çağın olsun [2, s. 210].

Orfoqrafik normaya uyğun variantda isə:

Dərya, dibin *dərindir,*
Suyun qandır, *irindir.*
Ata-ana *əzizdir,*
Bala candan *şirindir* [2, s. 210].

Bizim fikrimizcə, bu nümunədəki "dərindir", "irindir", "əzizdir", "şirindir" sözlərinin sonundakı "r" sonorunun saxlanılması üslubi zərurətin nəticəsidir. Çünki, burada "r" səsinin fonoloji imkanları olduqca canlıdır, estetik çalarları nisbətən tutumludur. "R" səsinin akustik keyfiyyəti ifadə olunan hökmlərə xüsusi qətiyyət bəxş edir, misraları xoş ahəng üzərində kökləyir. Bu da poetik mətləbin tez qavranılmasını təmin edir.

Bu məqam Türkiyə türkcəsində dilimizdən müəyyən qədər fərqlənir. Belə ki, bu dildə xəbərlik şəkilçisi olan –dır[4], əsasən, –tır[4] işlənir. Digər tərəfdən bu dildə həmin şəkilçisi son samiti ixtisar olunmadan yazılışa uyğun işlənir. Aşağıdakı nümunəyə diqqət yetirək:

Dan dananı dan etmiş,
Kaşları kemandır bunun.

Dandini, dandini, dan kuşu,
Çalılıktır yuvası.
Mama getir babası,
Halka lokum parası.

Türk dili üçün əsas xarakterik əlamətlərdən biri də sözlərin xəbərlik şəkilçisiolmadan işlənməsidir. Bu türk ədəbi dili üçün də, canlı danışıq dili üçün də ən çox xarakterik olan məqamdır. Bunu aşağıda təqdim etdiyimiz ninnidə də görə bilərik:

Gözleri kudret halkası,
Burnu Kabe hurması.
Ağzı şeker hokkası,
Yanakları misket elması.

Və ya

Dandini dandini danalı bebek,
Annesi maymun, babası şebek.
Elinde bir şammaşası
Uyumadı gitti
Eşek sıpası.

-dan, -dən ismin çıxışlıq hal şəkilçisi sonu "*m"* və "*n"* sonor samitləri ilə bitən sözlərə qoşulduqda *-nan, -nən* kimi tələffüz olunur. Bu da dilimizin öz təbiətindəki melodiyadan, ahəngdarlıq yaratma məziyyətlərindən irəli gəlir:

Ay balaca oglan,
Bazarda tullan,
Qoy qızlar görsün,
Dərdinnən ölsün [4, s. 473].

Bu şəkilçi də türk dilində yazılış qaydasına uyğun işlənməklə fonetik transkripsiyaya uyğunlaşmır.

Dandini Dandini Dan İster,

Bey Babasından Don İster.
Basmadan Beğenmez Oğlum,
Kadifeden Don İster.

Başqa nümunələrdə -dan şəkilçisinin -tan,-ten variantlarına rast gəlirik:

Dedesi gelir komşudan,
İbricegi gümüşten.
Egildim bir suiçeyim,
Kanatlandım uçayım.

"l", "n", "r" samitləri ilə bitən feillər, xəbər formasının qeyri-qəti gələcək zamanı şəkilçisini qəbul etdikdə yazıldığından fərqli tələffüz olunur [1, s. 124]. Bunu bütün layla və oxşamların dilində müşahidə etmək olur. Bu fərqli formalar poetik dinamizmi artırmağa, obrazlılığı gücləndirməyə xidmət edir. Sözün müəyyən komponentinin ixtisarı vacib estetik meyarların daxilində olduqca labüd bədii fakta çevrilir. Başqa sözlə desək, müəyyən ünsürləri ixtisar edilmiş formalar münasib ritmik qəliblərdə təzahür etməklə poetik nitqə ahəngdarlıq gətirir, bütövlükdə mətni poetik siqlətlə yükləyir:

Laylay *çallam* adına,
Tanrı yetsin dadına,
Laylay səsi eşidəndə,
Məni də sal yadına [6, s. 90].

Xoruzun ban səsinə,
Oynaram, dan səsinə.
Sən get şirin yuxuya.
Mən deyim can səsinə [4, s. 474].

Bu danışıq dili ünsürü türk ədəbi dilində geniş işlənməkdədir. Ninnilərin dilində də qeyd edilən dil elementinə təsadüf etmək mümkündür. Məsələn:

Gökten indi Cebrail,
Altın beşik içinde.
Ninni deddim uyudum,
Allah dedim kaldırmam.

Nəticə. Göründüyü kimi, türk dilində işlənən ninnilərlə Azərbaycan dilindəki layla və oxşamalar bir sıra dil elementləri baxımından oxşarlıq kəsb etdiyi kimi, fərqli, özünəməxsus cəhətlərə də malikdir. Bu dil elementləri həmin folklor nümunələrinin daha axıcı, uyumlu və diləyatımlı olması, xalq dilinin zənginliyini özündə ehtiva edib qoruması ilə fərqlənir. Bu nümunələr türk və Azərbaycan dillərinin poetik imkanlarını, xalq şeirlərində fonetik transkripsiyanın dilin təbiilik göstəricisi kimi rolunu bir daha aydınlaşdırır, Azərbaycan dilinin layla və oxşamalarında dil vahidlərinin tələffüz imkanlarına uyğun daha geniş işlənmə məqamlarını ortaya qoyur.

İstifadə edilmiş ədəbiyyat:

1. Abdullayev, N. Orfoqrafiya və orfoepiya təlimi məsələləri /N.Abdullayev. – Bakı, – 2008. – 149 s.
2. Azərbaycan bayatıları // – Bakı: XXI-Yeni nəşrlər evi, – 2004. – 304 s.

3. Azərbaycan folklor antologiyası // – Bakı: Az.SSR. Elmlər Akademiyası, – 1968. I kitab. – 289 s.

4. 19.Azərbaycan folkloru antologiyası. Gəncəbasar folkloru //– Bakı:Səda, – 2000. IV kitab – 500 s.

5. 20.Azərbaycan folkloru antologiyası. Göyçə folkloru // – Bakı: Səda, – 2000. III kitab. – 768 s.

6. Azərbaycan folkloru antologiyası. Şəki folkloru // – Bakı: Səda, – 2002. VI kitab. – 496 s.

7. Dəmirçizadə, Ə. Azərbaycan dilinin üslubiyyatı / Ə.Dəmirçizadə. – Bakı: Azərtədrisnəşr, – 1962. – 270 s.

8. Hüseynova, M.Aşıq və el şairlərinin fonopoetikası / M.Hüseynova. –Bakı: ADPU, – 2015. – 67 s.

9. Mirzəyev, H. Dərələyəz folkloru / H.Mirzəyev. – Bakı: Elm, – 2006. – 768 s.

10. Salmanova, K. Layla və oxşamalarda fonetik transkripsiya // – Bakı: Azərbaycan Milli Elmlər. Akademiyasının Nəsimi adına Dilçilik İnstitutu, Tədqiqlər 2, – 2017, – s. 155-159.

11. Серебренников, Б.А. Сравнительно-историческая грамматика тюркских языков / Б.А.Серебренников, Н.З.Гаджиева. – Москва: Наука, – 1986. – 301 с.

12. Orujeva, S.H. Azerbaijan childrens folklore in “The collection of materials for description of districts and tribes of the Caucasus” // –Vestnik TQPU (TSPU Bulletin), –2013.3 (131). –s. 111-114

13. Sutton, Smith. Childrens folklore. A source book / Smith Sutton. –Logan Utah: Utah State University, – 393.

ƏDƏBİYYAT

UOT: 947.1;973(575,2) (043.3)

ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ И КУЛЬТУРНО-НРАВСТВЕННАЯ ЖИЗНЬ КАЗАХСКОГО НАРОДА В ЭПИЧЕСКИХ ПОЛОТНАХ АБДИЖАМИЛА НУРПЕИСОВА

Низами Мамедов Тагисой
Доктор филологических наук, профессор
Бакинский Славянский Университет
Баку, Азербайджан
nizami.mamedov@mail.ru
Orcid: https://orcid.org/0009-0009-9837-4564

Резюме

В представленном материале анализу подвергаются произведения известного казахского романиста Абдижамила Нурпеисова, оставившего неизгладимый след в истории казахской литературы XX в. Будучи ровесником почти 100 летней истории казахов (1924 – 2022), вступая в литературу в 50-е годы, проработав над автобиографическим романом «Курляндия», посвящённым событиям Великой отечественной войны, он с большим мастерством сумел передать описываемую действительность. После его завершения он систематически и плодотворно работал над крупной историко-революционной трилогией «Кровь и пот», издание первой книги «Сумерки», которой увидела свет в 1961 г. За ним последовали – вторая книга «Мытарства» (1964) и третья – «Крушение» (1970). Трилогия, имеющая широту общественно-политических обобщений, богатой тонкостью психологического анализа, самобытных национальных характеров и дышащей описанием местного колорита, ярких запоминающихся образов и персонажей, заняла своё достойное место в казахской прозе второй половины XX в., автор же был удостоен престижной Государственной премии СССР. Вслед за отмеченным, А.Нурпеисов активно работал и в жанре публицистики. Вышедшие из-под пера писателя книги очерков «Раздумья», «Все в нём пело», «Край голубых гор», «Караван памяти», «Судьба моя, боль моя – Арал мой» и другие свидетельствовали о большом публицистическом потенциале А.Нурпеисова. Как в трилогии и в публицистических очерках, так и в романе-дилогии «Последний долг» он уже в несколько другом ракурсе затрагивал проблемы общественных отношений человека, природы, окружающий среды и т.д. Именно в этой дилогии, ставшей важным «экологическим образцом», находит своё новое воплощение рассуждение об окружающем человека мире. Изучения основных направлений творчества А.Нурпеисова подводит нас к мысли о том, что, несмотря на то, что произведения этого казахского автора переведены на многие, в том числе на европейские языки, они по сей день не зазвучали на азербайджанские языке.

Ключевые слова: индивидуальное видение, актуальные проблемы, писательское мастерство, широта художественных обобщений.

ABDİCAMİL NURPEİSOVUN EPİK ƏSƏRLƏRİNDƏ QAZAX XALQININ İCTİMAİ-SİYASİ VƏ MƏDƏNİ-MƏNƏVİ HƏYATI

Nizami Tağısoy Məmmədov
Filologiya elmləri doktoru, professor
Azərbaycan Slavyan Universiteti
Bakı, Azərbaycan

Xülasə

Təqdim olunan materialda XX əsr qazax ədəbiyyatı tarixində silinməz iz buraxmış məşhur qaza xyazıçısı Abdicəmil Nurpeisovun nəsr əsərləri təhlil edilir. Qazax tarixinin 100 ilə yaxın yaşı olan bir mərhələsində ömür sürmüş Nurpeisov (1924 – 2022), ədəbiyyata 50-ciillərdə qədəm qoymuş, Böyük Vətən Müharibəsi hadisələrinə həsr olunmuş "Kurlandiya" avtobioqrafik romanında təsvir olunan reallığı oxuculara çatdırmağı bacarmışdır. Adı çəkilən əsər tamamlandıqdan sonra o, digər bir mühüm "Qanvə tər" adlı irihəcmli tarixi-inqilabi xarakterli trilogiya üzərində sistemli və səmərəli işləmiş, “Alatoran” adlı ilk kitabını

1961-ci ildə nəşr etmişdir. Onun ardınca ikinci kitabı "Sərgərdanlıq" (1964) və üçüncü – "İflas" (1970) işıq üzü görmüşdür. İctimai-siyasi ümumiləşdirmələrin genişliyi, psixoloji təhlillərin incəliyi, orijinal milli xarakterlər və yerli koloritin görümlü təsviri, canlı və yaddaqalan obraz və personajlarla zəngin olan trilogiya XX əsrinikinci yarısı qazax nəsrində öz layiqli yerini tutmuşdur. Bu trilogiyaya görə müəllif nüfuzlu SSRİ Dövlət Mükafatına layiq görülmüşdür. Qeyd etdiklərimizdən sonra A.Nurpeisov jurnalistika janrında yetərincə fəal işləmişdir. Yazıçının qələmindən çıxmış "Düşüncələr", "Onda hər şey oxuyurdu", "Mavi dağlar yurdu", "Yaddaş karvanı", "Talem mənim, dərdim mənim – Aralım" və başqa esse və kitabları onun böyük publicist olduğundan xəbər verirdi. İstər trilogiyasında, istər publisistik oçerklərində, istərsə də "Son borc" roman-dilogiyasında o, artıq insanın, təbiətin, ətraf mühitin və s. kimi anlamlara ictimai münasibətlər fonunda fərqli rakursdan yanaşdığını nümayiş etdirirdi. Məhz mühüm "ekoloji model"ə çevrilmiş bu dilogiyada insanı əhatə edən dünyayla bağlı diskursun yeni təcəssümü ortaya qoyulurdu. A.Nurpeisovun yaradıcılığının əsas istiqamətlərinin tədqiqi bizi belə bir nəticəyə gətirib çıxarır ki, bu qazax müəllifinin əsərləri bir çox, o cümlədən Avropa dillərinə tərcümə olunsa da, bu günə qədər Azərbaycan dilində səsləndirilməmişdir.

Açar sözlər: fərdi baxış, actual məsələlər, yazıçı məharəti, bədii ümumiləşdirmələrin genişliyi.

SOCİO-POLİTİCAL, CULTURAL AND MORAL LİFE OF THE KAZAKH PEOPLE İN THE EPİC PAİNTİNGS OF ABDİZHAMİL NURPEİSOV

Nizami Tagisoy Mammadov
doctor of sciences in philology, professor
Baku Slavic University
Baku, Azerbaijan

Summary

In the presented material, the prose works of the famous Kazakh novelist Abdizhamil Nurpeisov, who left an indelible mark on the history of Kazakh literature of the 20th century, are analyzed. Being the same age as almost 100 years of Kazakh history (1924 - 2022), entering literature in the 50s, having worked on the autobiographical novel "Kurland", dedicated to the events of the Great Patriotic War, he managed to convey the described reality with great skill. After its completion, he systematically and fruitfully worked on a major historical-revolutionary trilogy "Blood and Sweat", the publication of the first book "Twilight", which was published in 1961. He was followed by the second book "The Ordeal" (1964) and the third - " Crash" (1970). The trilogy, which has a breadth of socio-political generalizations, rich in the subtlety of psychological analysis, original national characters and breathing descriptions of local color, vivid and memorable images and characters, took its rightful place in Kazakh prose of the second half of the 20th century, while the author was awarded the prestigious State Prize THE USSR. Following the noted, A. Nurpeisov actively worked in the genre of journalism. The books of essays "Thoughts", "Everything in him sang", "The Land of the Blue Mountains", "Caravan of Memory", "My Fate, My Pain - My Aral" and others that came out from the writer's pen testified to the great journalistic potential of A. Nurpeisov . Both in the trilogy and in journalistic essays, and in the novel-dilogy "The Last Duty", he already touched on the problems of social relations of man, nature, the environment, etc. from a slightly different angle. It is in this dilogy, which has become an important "ecological model", that the discourse on the world around man finds its new embodiment. The study of the main directions of creativity of A. Nurpeisov leads us to the idea that, despite the fact that the works of this Kazakh author have been translated into many, including European languages, they have not sounded in Azerbaijani to this day.

Key words: individual vision, topical issues, writing skills, breadth of artistic generalizations.

Введение. Среди представителей казахской литературы XX в. особняком стоит имя выдающегося романиста Абдижамила Нурпеисова, обогатившего родную культуру бессмертными произведениями, а также темами, проблемами, идеями, героями, образами, персонажами, сюжетно-композиционными палитрами. Живший долгую и кипучую жизнь, в тоже время его творчество протекало в двух отличных друг от друга общественно-политических и культурно-нравственных формациях. Абдижамил Нурпеисов в своих прозаических произведениях, с одной стороны, изображал проблемы социалистической действительности, с другой зрелый период его жизни проходил в ту эпоху, когда Казахстан и казахский народ после развала Советского Союза, также и как другие республики, входящие

в этот союз, получили независимость. В историю казахского народа он вошёл как человек незаурядных способностей. Пройдя длительный путь Великой отечественной войны, вступив с 1943 г. в ряды ВКП(б), проработав политработником, участвовал в боях за Прибалтику и другие регионы. Будучи очевидцем тяжелейших битв и событий, по мотивам увиденного, в 1950 г. он издал роман «Курляндия». За долго до поступления в Институт мировой литературы им. М.Горького другого яркого таланта казахского народа О.Сулейменова, Нурпеисов ещё 1956 г. завершил своё образование в этой кузнице литературы и вернулся в родной Казахстан. Вслед за первым романом, 50-е годы, поработав над трилогией «Кровь и пот», описывающая события, происходившие в Приаралье в начальные периоды 900-х годов, в 1960-е годы, он одно за другим публикует первую книгу «Сумерки» (1961),вторую книгу «Мытарства» (1964), третью «Крушение»(1970). По мотивам трилогии в те же 70-е годы в казахском театре был поставлен спектакль, где исполнители главных ролей Асанали Ашимов и Фарида Шарапова получили Государственную премию СССР (1974), а в 1978 г. по роману «Кровь и пот» по сценарию А.С.Михалкова-Кончаловского снят одноименный художественный фильм, также удостоившийся приза. Произведения А.Нурпеисова широко известны за пределами Казахстана. Однако, к сожалению, о таком ярком и самобытном авторе и о его произведениях до их порнеизвестно в азербайджанской культурно-общественной среде. Именно это натолкнуло нас рассмотреть творчество Абдижамила Нурпеисова в индивидуальном и в более широком культурно-литературном контексте.

Научная новизна нашей работы состоит в том, что, если произведения других казахских писателей (Абай Кунанбаев, Мухтар Ауэзов, Олжас Сулейменов, Оралхан Букеев, Роллан Серсенбаев и др.) переведены на азербайджанский язык, в той или иной мере привлечены к исследованиям, то творчество с ярковыраженным национальным колоритом и местным своеобразием Абдижамила Нурпеисова всё ещё неизвестно в Азербайджане. Помимо сказанного, новизна данного материала состоит и в том, что в нём впервые прослеживаются отдельные особенности творческой эволюции казахского автора, а также при необходимости делается попытка определить свойственные черты его повествованиям, образной системе, характеристике и сюжетной линии, привлечённых к анализу романов А.Нурпеисова, рассматривая их как яркое, оригинальное, самобытное литературно-художественное воплощение.

Необходимость выполнения работы именно в представленном ракурсе связана с тем, что за последние 20 с лишним лет достаточно продуктивно продвигаются процессы в плане сближения азербайджанско-казахских литературных взаимосвязей. В настоящее время азербайджанские исследователи (Туран Теймуров, Нармин Азадгил, Кенуль Алиева и др.) и казахские (Гульмира Салумбек, Айнур Ахметова и др.) работают в части развития обширных и разнообразных проблем азербайджаско-казахских литературных взаимоотношений. В то же время, автором этих строк переведён и издан на азербайджанском языке казахский героический эпос «Кобланды-батыр» [8], а также книга, посвящённая деятельности казахской национально-политической организации «Алаш Орда» [1], подготовлен и представлен для азербайджаноязычной аудитории фундаментальная монография «Творчество Мухтара Ауэзова: от традиции к новаторству» [10]. Он систематически публикует статьи и материалы по творчеству казахских писателей, выступает с докладами на международных конференциях (Астана, Алматы, Казань, Уфа, Нукус и т.д.) по многим вопросам казахской литературы и литературоведения. Однако проделанное всё ещё явно недостаточно. В свете сказанного, нам весьма необходимым представляется включить в этот общетюркский культурно-литературный ландшафт с целью углубления наших связей и изучения отдельных вопросов творчества А.Нурпеисова в тюркологическом литературоведении.

Важность применения. В процессе современного культурно-литературного сотрудничества Азербайджана и Казахстана историко-культурная преемственность является важным вектором развития. В то же время необходимо принимать во внимание и то обстоятельство, что традиции многообразных культурных связей между двумя тюркскими

